# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

## Siyasi partiya sədrlərinin birgə səfərlərinin növbəti ünvanı Laçın şəhəridir



3


SƏS

№ 072 (7240)

30 aprel 2025-ci il.
Qiyməti 60 qəpik


# Azərbaycan - İran:

## iqtisadi əməkdaşlıq üçün böyük imkanlar




2

**Prezident İlham Əliyev: "Əminəm ki, biz növbəti illərdə ticarət, iqtisadi, sərmayə qoyuluşu və digər bu kimi sahələrdə ciddi irəliləyiş görəcəyik"**

# Etnik nifrətin təzahürü və AXMAQLIQ SİNDROMU



5

## Milli mətbuat-150: Heç olmaz ki, doğru söz yerdə qalsın



8

## Bakıda tıxac probleminin sonu olacaqmı?



16

## Dünyanın böyük problemi: sonsuzluq



6

## Amerikanı sarsıdan 100 gün




10

## Kallas gəldi və getdi - ermənipərəst siyasət dəyişəcəkmi?



5

# Azərbaycan - İran:

## iqtisadi əməkdaşlıq üçün böyük imkanlar

### Prezident İlham Əliyev: "Əminəm ki, biz növbəti illərdə ticarət, iqtisadi, sərmayə qoyuluşu və digər bu kimi sahələrdə ciddi irəliləyiş görəcəyik"

Dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verən Azərbaycan dünyada yüksək imicə malik olan ölkədir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan beynəlxalq əlaqələr müasir dövrümüzdə daha da möhkəmlənir, ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı münasibətlər inkişaf etdirilir. Müstəqil Azərbaycanın balanslaşdırılmış xarici siyasi kursunun məntiqi olaraq dünya ölkələri ilə siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığa mühüm töhfələr verir. Ölkəmizin Şərq və Qərb, eləcə də Şimal və Cənubla milli maraqlarını qorumaqda fəal əməkdaşlığı dövlətlərarası münasibətlərin inkişafının göstəricisidir. Azərbaycanın İranla əməkdaşlığı da xüsusi əhəmiyyət daşıyır. Ölkələrarası münasibətlər yeni mərhələyə qədəm qoyub. Dövlətlərarası münasibətlərdə təkcə qonşuluq bağları deyil, tarixi köklərin bağlılığı əhəmiyyət daşıyır. İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana rəsmi səfəri əlaqələrin yüksək səviyyədə olmasının göstəricisi olmaqla yanaşı, regionda təhlükəsizliyin dayanıqlı olması və ikitərəfli əlaqələrin inkişafı istiqamətində atılan əhəmiyyətli addımdır. Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidentinin imzaladıqları Birgə Bəyannamə, eləcə də dövlətlərarası imzalanmış sənədlər əməkdaşlığın inkişafında yeni üfüqlər açır. Bakıda keçirilən Azərbaycan-İran biznes forumunda Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı bildirdiyi kimi, "Səfər zamanı əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər bir daha Azərbaycan-İran dostluğunu, qardaşlığını təsdiqləyir. Bir sözlə, bu rəsmi səfərin çox gözəl siyasi nəticələri vardır. İmzalanmış sənədlər arasında xüsusilə prezidentlər tərəfindən imzalanmış Birgə Bəyannaməni qeyd etmək istərdim. Çox ciddi sənəddir və gələcək əməkdaşlıq üçün bizə yol göstərən sənəddir. Əlbəttə, biz istərdik ki, ticarət, iqtisadi əməkdaşlığımız da eyni nəticələri hasil etsin. Əfsuslar olsun ki, bu günə qədər bu, belə olmayıb. Ancaq əminəm ki, bu səfərdən sonra və biznes-forumun nəticələrindən irəli gələrək biz növbəti illərdə ticarət, iqtisadi, sərmayə qoyuluşu və digər bu kimi sahələrdə ciddi irəliləyiş görəcəyik".




#### "ŞİMAL-CƏNUB NƏQLİYYAT DƏHLİZİ ÜZRƏ BİZ SIX ƏMƏKDAŞLIQ EDİRİK"

İran ilə Azərbaycan arasındakı əlaqələrin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün böyük əsaslar var. Hər iki xalqın eyni tarixə, dinə və milli adət-ənənələrə malik olması qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulmasında mühüm rola malikdir. İmzalanan sənədlər yalnız iqtisadi deyil, həm də mədəni əlaqələrin inkişafına töhfə verəcək. Ümumiyyətlə, bu səfər dostluq əlaqələrinin möhkəmlənməsinə yeni yol açacaq. Gömrük, turizm, nəqliyyat sahələrində əməkdaşlığın fəallaşmasına təkan verəcək. İran Prezidentinin Azərbaycana səfəri iki ölkə arasındakı əlaqələrin inkişafı, o cümlədən iqtisadi baxımdan tərəflər üçün də yeni hədəflər müəyyən edir. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi strateji əhəmiyyət daşıyan layihədir. Bu dəhliz İran ilə Azərbaycanın iqtisadiyyatının inkişafına yeni imkanlar yaradaraq, qarşılıqlı ticarətin də inkişafına təkan verəcək, gəlirləri artıracaq, əhalinin məşğulluğunu təmin edəcəkdir. "Azərbaycan və İran, eyni zamanda, önəmli beynəlxalq layihələrdə iştirak edir, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizi üzrə biz sıx əməkdaşlıq edirik. Biz istəyirik ki, bu, sadəcə, nəqliyyat dəhlizi olmasın, həm Azərbaycan, həm də İran ərazisində yol boyunca yeni bizneslərin açılması, yeni sənaye müəssisələrinin yaradılması üçün imkan yaratsın. Bunun üçün kifayət qədər imkanlar var."

#### "BİZ, SADƏCƏ OLARAQ, ARTACAQ YÜKLƏRİ NƏZƏRƏ ALARAQ ÖZ NƏQLİYYAT İMKANLARIMIZI VƏ İNFRASTRUKTURUMUZU GENİŞLƏNDİRİRİK"

Bu gün Azərbaycan Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin formalaşmasında aparıcı dövlətlərdən biridir. Azərbaycan və İranın strateji əməkdaşlığında Şimal-Cənub Nəqliyyat Dəhlizi çərçivəsində həyata keçirilən layihələr önəmli yer tutur. Bu dəhliz Avropa ilə Asiya arasında ən qısa və səmərəli tranzit yoludur. "Biz bu gün təbii olaraq üçtərəfli əməkdaşlıq layihələrini müzakirə etdik. Onların arasında təbii olaraq Şimal-Cənub nəqliyyat dəhlizi xüsusi yer tutur", - deyə Azərbaycan Prezident bildirib. Bu layihənin bütün iştirakçı ölkələr üçün çox böyük səmərə gətirəcəyini, böyük fayda verəcəyini söyləyən dövlətimizin başçısı Azərbaycanın öz ərazisində bu nəqliyyat dəhlizinin fəaliyyəti üçün bütün lazımi infrastruktur layihələrini həyata keçirdiyini qeyd edərək deyib: "Hazırda biz, sadəcə olaraq, artacaq yükləri nəzərə alaraq öz nəqliyyat imkanlarımızı və infrastrukturumuzu genişləndiririk".



Dəmir və avtomobil yolları, liman infrastrukturlarının modernləşdirilməsi, həm iqtisadiyyatın şaxələndirilməsinə, həm də beynəlxalq ticarətin həcminin artmasına şərait yaradır. Asiya ilə Avropanı birləşdirən bu dəhlizə daxil olan avtomobil, dəmir yolları Azərbaycan və İran ərazisindən keçir. Bu isə İran ilə Azərbaycanın beynəlxalq yükdaşımalarda tranzit potensialını və rolunu artırır. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi Avropanın 800 milyona yaxın əhalinin yaşadığı 40-dan çox ölkəsi ilə 2 milyarddan çox əhalisi olan Cənub Şərqi Asiya ölkələrini birləşdirir. Dəhlizin əsasını təkli edən Qəzvin-Rəşt-Astara (İran) - Astara (Azərbaycan) dəmir yolu xəttinin Qəzvin-Rəşt hissəsi artıq istismara verilib. Layihə çərçivəsində Azərbaycan tərəfi üzərinə düşən vəzifələri yerinə yetirib.

#### "İKİ ÖLKƏ ARASINDAKI TİCARƏT DÖVRİYYƏSİ HEÇ BİR MİLYARD DOLLARA ÇATMIR VƏ ƏLBƏTTƏ Kİ, BU, BİZİ QANE EDƏ BİLMƏZ"

Azərbaycan-İran arasında yeni əməkdaşlıq münasibətləri yaranıb. Son illərdə hər iki ölkə arasında müxtəlif sahələri əhatə edən - ticarət, nəqliyyat, energetika və digər sahəsində əməkdaşlığı gücləndirərək yeni imkanlar əldə etmişdir. Hazırda Azərbaycan və İran arasında iqtisadi-ticari əlaqələr dinamizmlə inkişaf edir. Azərbaycanın İranla tarixi-mədəni bağları gələcəkdə bu əməkdaşlığın daha da güclənməsinə töhfədir. "Bu gün biz statistik rəqəmlərə baxdıqda görürük ki, iki ölkə arasındakı ticarət dövriyyəsi heç bir milyard dollara çatmır və əlbəttə ki, bu, bizi qane edə bilməz", - deyən dövlətimizin başçısı bildirib ki, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, müştərək müəssisələrin yaradılması və digər buna oxşar təşəbbüslər əlbəttə ki, təqdirəlayiq olacaq: "Hesab edirəm ki, burada aparıcı rol Azərbaycan-İran hökumətlərarası komissiyaya məxsusdur. Mən komissiyanın fəaliyyətini yüksək qiymətləndirirəm. Komissiyanın həmsədrləri, üzvləri müntəzəm olaraq görüşürlər və hər bir görüşün böyük əhəmiyyəti var. Onlara konkret layihələr təqdim olunmalıdır. Ölkələrimizin vergi sistemi, tariflər, sərmayə iqlimi, biznes sahəsindəki qanunvericilik - bütün bunlar iki ölkənin iş adamlarına aydın olmalıdır".

#### "BİZ BEŞ İLDƏN SONRA 6500 MEQAVAT GÜCÜNDƏ GÜNƏŞ, KÜLƏK VƏ SU ENERJİ POTENSİALIMIZI ORTAYA QOYACAĞIQ"

Dövlət başçısı çıxışında müzakirə olunan məsələlər sırasında elektroenergetika məsələlərinə də böyük diqqət ayrıldığını bildirib. Qeyd edib ki, burada təkcə elektrik stansiyalarının tikintisi yox, eyni zamanda, ötürücü xətlərin tikintisi məsələsi nəzərdə tutulur: "Biz gələcəkdə iki ölkə arasında həm ikitərəfli, həm də çoxtərəfli - qonşu ölkələrlə birlikdə formatda enerji mübadiləsi layihələrinə də baxa bilərik. Daha doğrusu, bu gün artıq bu, gündəlikdə duran məsələlərdən biridir. Azərbaycanda yaşıl enerjinin istehsalı prosesi artıq başlamışdır və bunun böyük gələcəyi var. Biz beş ildən sonra 6500 meqavat gücündə Günəş, külək və su enerji potensialımızı ortaya qoyacağıq və bunun böyük hissəsi ixracyönümlü enerji növləridir. Bu istiqamətdə əlbəttə ki, indidən hazırlıq işləri aparılmalıdır".

#### REGİONAL ƏMƏKDAŞLIQ, SABİTLİK VƏ İNKİŞAF ÜÇÜN GENİŞMİQYASLI TƏŞƏBBÜSLƏR

Azərbaycan və İran arasında müxtəlif sahələri əhatə edən əlaqələr mövcuddur. Araz çayı üzərində inşa edilmiş "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasiminin keçirilməsi iki ölkə arasında tarixi bir hadisəyə çevrildi. Ən əhəmiyyətli layihələrdən biri də Azərbaycan-İran sərhədində yerləşən "Xudafərin" və "Qız qalası" hidroelektrik kompleksləri həm enerji təchizatına, həm də kənd təsərrüfatı suvarma sistemlərinin inkişafına güclü stimul verir. Bu layihələr, "yaşıl enerji" sahəsində ölkələrimiz arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün yeni perspektivlər vəd edir. "Xudafərin" və "Qız Qalası" ölkələrimiz üçün ekoloji, enerji, iqtisadi əhəmiyyət daşıyan infrastruktur layihələri olmaqla bərabər, bölgədə inkişafa, təhlükəsizliyə, dostluğa xidmət edən uzunmüddətli əməkdaşlıq körpüsüdür. İran Azərbaycanın yaxın qonşusudur və ölkəmiz bölgənin istisnasız olaraq bütün dövlətləri kimi, İranla da səmərəli əməkdaşlığı davam etdirməkdə maraqlıdır. Araz çayı üzərində su elektrik stansiyalarının tikintisi və Ağbənd-Kələlə avtomobil körpüsü layihəsinin yekunlaşdırılması da önəmli məsələrdəndir. Azərbaycan və İran regional məsələlərin bölgə ölkələrinin özləri tərəfindən həll edilməsinin tərəfdarıdır. Bu xüsusda 3+3 regional əməkdaşlıq formatı əhəmiyyət kəsb edir.

Azərbaycan-İran arasında bir çox sahələrdə əlaqələr mövcuddur ki, bu da həm ölkələri gücləndirir, eyni zamanda, regional əməkdaşlığa müsbət təsirini göstərir. Bu gün ölkələrimiz arasında münasibətləri bütün sahələrdə inkişaf edir. Azərbaycan ilə İran bir sıra beynəlxalq platformalarda əməkdaşlıq edir.

Azərbaycan Cənubi Qafqazın, eləcə də ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış edir. Regionda yeni reallıqlar yaradan ölkəmizin geosiyasi mövqeyi onun regional əməkdaşlıq, sabitlik və inkişaf üçün genişmiqyaslı təşəbbüslər irəli sürməsinə imkanlarını daha da artırır. Azərbaycan-İran biznes forumunda Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı zamanı səsləndirdiyi fikirlər dövlətlərarası münasibətlərin inkişafına yeni töhfələr verəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# Siyasi partiya sədrlərinin birgə səfərlərinin növbəti ünvanı Laçın şəhəridir

***Ölkəmizdə fəal şəkildə təşviq olunan siyasi dialoq mühiti və bununla əlaqədar formalaşmaqda olan yeni siyasi mədəniyyət çərçivəsində siyasi partiya sədrlərinin işğaldan azad edilmiş ərazilərə birgə səfərlərinin təşkili Azərbaycan ictimaiyyəti tərəfindən artıq müsbət demokratik ənənə kimi qəbul olunur. Milli həmrəylik təzahürü ilə təcəssüm olunan və ictimaiyyət tərəfindən təqdir edilən bu demokratik təcrübə siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı və işgüzar münasibətləri daha da dərinləşdirir.***

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə təşviq olunan siyasi dialoq mühiti çərçivəsində mütəmadi şəkildə müxtəlif səpgili layihələr icra edilir. Görüşlər, açıq müzakirələr, teledebatlar, peşəkar diskussiyalar, birgə səfərlər, konfranslar və bu kimi digər layihələr siyasi proseslərdə iştirak edən tərəflər arasında etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar olunmasına xidmət göstərir. Azərbaycan ictimaiyyəti təqribən son beş il ərzində iqtidarın mövcud istiqamətdəki davamlı təşəbbüslərinin şahididir. Siyasi dialoq ilə əlaqədar hökumət tərəfindən atılan bütün təşəbbüslər mediada açıq şəkildə işıqlandırılır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev öz çıxış və müsahibələrində siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürləri prinsipial və davamlı şəkildə qeyd edir.









Siyasi partiya rəhbərlərinin işğaldan azad olunmuş ərazilərə birgə səfərlərinin təşkili təcrübəsi konkret məsələlərin müzakirəsi üçün işgüzar mühiti yaratmaqla tərəflər arasında konstruktiv əməkdaşlığı təşviq edir. Xatırladaq ki, sağlam və səmərəli əməkdaşlıq mühitinin bərqərar olunmasına xidmət edən siyasi partiya rəhbərlərinin birgə səfərləri daha əvvəl Ağdam, Şuşa (2 dəfə), Zəngilan, Xocalı, Əsgəran və Xankəndiyə təşkil olunub.

Ölkəmizdə yaşanan siyasi dialoq mühiti sayəsində müxalif siyasi partiyalar, eyni zamanda, beynəlxalq tədbirlərdə də tərəf müqabili kimi iştirak edirlər. Belə ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə birgə səfərlərlə yanaşı, ölkə siyasiləri, həmçinin Şuşa Bəyannaməsinin birinci ildönümü ilə əlaqədar 2022-ci il iyunun 15-də Şuşa şəhərində keçirilmiş "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" adlı beynəlxalq konfransa da qatılıblar. Bununla da siyasi partiyalar cəmiyyətin intellektual potensialının səfərbər edilməsi kimi dövlət üçün mühüm və strateji vəzifənin icrasını təmin etmiş olurlar.




AZƏRTAC xəbər verir ki, növbəti, artıq sayca 6-cı olan birgə səfərin ünvanı Laçındır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə aprelin 29-də həyata keçirilmiş səfərdə ümumilikdə 80 nəfər olmaqla, 24 siyasi partiyanın sədr və nümayəndələri, habelə politoloq, siyasi şərhçi, internet televiziyalarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər.

Səfər çərçivəsində Zabuxçay su anbarı, Laçın şəhəri, o cümlədən Heydər Əliyev küçəsi, "Lacinema" kino mərkəzi, "Hoçazfilm" kinopavilyonu və Bəylik kəndində aparılan bərpa və yenidənqurma işləri ilə tanışlıq olub, habelə "Zerti Aqro-Sənaye Parkı"nda fəaliyyət göstərən müəssisələr haqqında ətraflı məlumatlar verilib.

Səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Laçın şəhərində iştirakçılar qarşısında çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı şəkildə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında geniş məlumat verib.

Ölkədə həmrəylik mühitinin qorunmasında siyasi partiyaların müstəsna əhəmiyyətini vurğulayan Administrasiya rəsmisi qeyd edib ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbə bütün dünya azərbaycanlılarının qürur mənbəyidir. Vətənpərvər qüvvələri birləşdirən əsas amilin milli maraqlar və dövlətçilik mövqeyi olduğunu bildirən Ədalət Vəliyev bildirib ki, Laçının timsalında işğaldan azad olunmuş bütün ərazilərdə aparılan bərpa-quruculuq işlərinin səviyyəsi haqqında təsəvvürlər formalaşa bilər. İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı müasir Azərbaycan tarixinin ən qürurlu səhifələrindən olduğunu bildirən Administrasiya rəsmisi mövcud istiqamətdə Prezident İlham Əliyev tərəfindən təsdiqlənmiş müvafiq dövlət proqramlarından da söhbət açıb.

Suverenliyin tam bərpasının Azərbaycan tarixinin mahiyyət və keyfiyyət etibarilə yeni inkişaf mərhələsi olduğunu xüsusi vurğulayan Ədalət Vəliyev diqqətə çatdırıb ki, ölkəmizdə yaşanan milli həmrəylik mühiti sabitlik və dayanıqlı inkişafın zəmanətidir. Siyasi dialoqda fəal iştirak edən siyasi partiyalar həmrəylik mühitinin qorunmasına öz töhfələrini verirlər. Odur ki, siyasi partiyaların Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan bu cür layihələrdə fəal iştirakı bilavasitə milli və siyasi həmrəyliyin təzahürüdür.

Səfər çərçivəsində siyasilər Laçının iqtisadi, habelə turizm potensialı ilə də tanış olublar. İştirakçılara bildirilib ki, Laçının turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaq. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcək. Nəzərə alınmalıdır ki, yaradılacaq yeni infrastruktur layihələri Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

Hökumətin bu cür təşəbbüslərində siyasi partiyaların fəal iştirakı sayəsində siyasətdə konstruktiv əməkdaşlıq, dövlət naminə şəxsi ambisiyalardan imtina olunması, milli həmrəylik, habelə etibarlı münasibətlər təmin edilir. Əlamətdar və müsbət haldır ki, sözügedən səfərlər Prezident İlham Əliyevin yerlərdə yeni yaşayış məkanların rəsmi açılışlardan və Qarabağa köçmüş sakinlər ilə görüşlərdən sonra təşkil olunur. Sözügedən hal bir daha ölkəmizdə sağlam iqtidar-müxalifət münasibətlərinin mövcudluğundan xəbər verir.

# Dünyada ən çox zəlzələ olan ölkələr hansılardır?

**Yerdəki zəlzələlər Yer qabığının və mantiyanın hərəkəti nəticəsində baş verən təbii fəlakətlərdir. Bu hərəkətlər yer qabığındakı boşqablar arasında çatlar və yerdəyişmələr nəticəsində baş verir. Dünyanın müxtəlif bölgələrində zəlzələlər baş verir və hər bölgədə zəlzələlərin intensivliyi və tezliyi fərqlidir. Bunun səbəbi plitələrin quruluşu, hərəkət sürəti və yer qabığında yerləşməsidir. Bəs, dünyanın hansı ölkələrində zəlzələlər daha çox olur? SİA mövzu ilə bağlı araşdırma aparıb.**

Dünya ölkələri tarix boyu zəlzələlərin təsirlərini azaltmaq üçün müxtəlif tədbirlər görüblər. Bu tədbirlərə zəlzələyə davamlı tikililərin tikintisi, zəlzələyə davamlılığın və fəlakətlərin idarə olunması strategiyalarının müəyyən edilməsi, fəlakət zonalarında insanların təlimi və xəbərdarlıq sistemlərinin hazırlanması daxildir. Məsələn, Sakit Okean Plitəsi regionunda (Kaliforniya, Yaponiya və s.) yüksək maqnitudalı zəlzələlər tez-tez baş verir. Eynilə, Hindistan və Çinin qərbindəki Hindistan və Çin Plitələri arasında sürüşmələr də tez-tez zəlzələlərə səbəb olur.







Dünyada ən çox zəlzələ olan ölkələr sırasına Yaponiya, Türkiyə, Hindistan, İran, Çin, Meksika, Peru, İndoneziya, ABŞ (Kaliforniya, Alyaska və Vaşinqton ştatları), Rusiya və Çili daxildir. Bu ölkələr dünyanın bütün ölkələri arasında ən yüksək zəlzələ tezliyinə malikdirlər. Bu ölkələrdə zəlzələ aktivliyinin tezliyi və intensivliyi zamanla dəyişə bilər.



## DÜNYANIN ƏN BÖYÜK 10 ZƏLZƏLƏSİ

Dünyamızda baş verən təbii fəlakətlərdən biri də "Zəlzələ" kimi tanınır. Ölkəmizdən kənarda dünyanın bir çox müxtəlif yerlərində böyük zəlzələlər baş verir.

1. Valdivia, Çili zəlzələsi (22 may 1960)

Dünyada məlum olan ən böyük zəlzələ Çili zəlzələsi kimi tanınır. Tarixin ən böyük zəlzələsi olan Çili zəlzələsi 9,5 bal gücündə olub. Cənubi Amerikada Çilidə baş verən bu zəlzələ nəticəsində 1655 nəfər həyatını itirib. Bundan əlavə, 3 mindən çox insan yaralanıb. Lakin zəlzələnin təsirlərinə görə milyonlarla insan köç etmək məcburiyyətində qalıb. Zəlzələnin təsiri bunlarla məhdudlaşmayıb. Zəlzələ nəticəsində Havay, Filippin və Yaponiya sahillərində nəhəng dalğalar görünüb.

**2. Alyaska, ABŞ (28 mart 1964)**

Alyaskada zəlzələ 9,2 bal gücündə olub. Zəlzələnin yaratdığı nəhəng dalğalar nəticəsində 128 nəfər həyatını itirib. Təxminən 3 dəqiqə davam edən zəlzələdən Kanada və Havay adaları da zərər çəkib. Zəlzələdən ən çox zərər çəkmiş bölgə zəlzələnin episentrindən təxminən 120 km aralıda yerləşən Ankoric şəhəri olub.

**3. Sumatra, İndoneziya (26 dekabr 2004)**

2004-cü il dekabrın 26-da baş vermiş zəlzələ 9,1 bal gücündə olub. Hind okeanındakı Sumatra adasının sahillərində baş verən zəlzələ 14 ölkəni əhatə edib. Zəlzələdən sonra bir neçə metr hündürlüyü olan zəlzələlər Şimali Asiya və Şərqi Afrikaya təsir edib.

Bu zəlzələ yerin təxminən 1 sm titrəməsinə səbəb oldu və çoxlu zəlzələlərə səbəb oldu. Bundan əlavə, təxminən 10 dəqiqə davam edən zəlzələ indiyə qədər görülən ən uzun zəlzələdir.

**4. Sendai, Yaponiya (11 mart 2011)**

O, 2011-ci il martın 11-də Yaponiyanın şimal-şərqindəki Honsyu sahillərində baş verib. Zəlzələnin gücü 9 baldır. Zəlzələnin yaratdığı sunami dalğalarının uzunluğu 40,5 metrə çatıb. Bu dalğalar nəticəsində 20 mindən çox insan həyatını itirdi.

**5. Kamçatka, Rusiya (4 noyabr 1952)**

4 noyabr 1952-ci ildə baş verən zəlzələ 9 bal gücündə idi. Zəlzələnin yaratdığı nəhəng dalğalar Havay adalarına qədər çatdı. Bu qədər böyük zəlzələ olsa da, rəsmi məlumatlara görə insan tələfatı olmayıb.

**6. Bio-Bio, Çili (27 fevral 2010-cu il)**

Çilidə baş verən zəlzələ 8,8 bal gücündə olub və təxminən 1,5 dəqiqə davam edib. Zəlzələ nəticəsində 500-dən çox insan həyatını itirib, minlərlə insan yaralanıb. Zəlzələnin yaratdığı sunamidən Çili, Peru, Kolumbiya, Ekvador və Panama kimi ölkələr zərər çəkib.

**7. Ekvador sahili (31 yanvar 1906)**

Ekvador sahillərində baş verən zəlzələ 8,8 bal gücündə olub. Zəlzələ Kolumbiya ilə yanaşı Ekvadora da ciddi ziyan vurub. Zəlzələdə 1000-ə yaxın insan həyatını itirib. Bundan başqa, zəlzələ nəticəsində yaranan dalğalar Yaponiyaya qədər gedib çıxıb.

**8. Rat Islands, Alyaska, ABŞ (2 aprel 1965)**

Burada baş verən zəlzələnin gücü 8,7 baldır. Zəlzələnin özündən çox, zəlzələ nəticəsində yaranan nəhəng dalğalar ciddi fəsadlar törədib. Zəlzələ cüzi dağıntılara səbəb olub, itki yoxdur.

**9. Sumatra, İndoneziya (28 mart 2005)**

Sumatra adasında baş verən zəlzələnin gücü 8,6 bal təşkil edib. Zəlzələnin yaratdığı nəhəng dalğalar Şri-Lankaya çatıb. Zəlzələ nəticəsində 1400 nəfər həyatını itirib. Bundan əlavə, yaranan dalğalar 400-dən çox insanın xəsarət almasına səbəb olub.

**10. Assam, Tibet (15 avqust 1950)**

Assam zəlzələsi kimi tanınan zəlzələnin gücü 8,6 baldır. Yerüstü ərazidə baş verən zəlzələ nəticəsində 780 nəfər həyatını itirib. Tibetdən başqa Assam zəlzələsi Çin və Hindistanın bəzi şəhərlərinə təsir edib.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Etnik nifrətin təzahürü və AXMAQLIQ SİNDROMU



***Firavanlıq, əmin-amanlıq, sülh şəraitində yaşamaq və bunun üçün də ilk növbədə, nifrəti, düşmənçilik ideyalarını bir kənara atmaq üçün ən azından primitiv ağıla sahib olmaq gərəkir ki, bunu haylar barəsində söyləmək olmur. Belə ki, davam edir və hələ də qonşularını özlərinə düşmən hesab edirlərsə, bundan sonra da həmin o "ağıl sahibi olmaq" ifadəsini haylar barədə söyləmək olmayacaq. Çünki güclü dövlət olmaq, normal qonşuluq münasibətləri qurmaq, regionda sülh şəraitində yaşamaq əvəzinə, qonşu dövlətə məxsus olan bayrağın yandırılması kimi hay ənənəsinin etnik nifrətin davamlı şəkildə təzahür etməsi ancaq axmaqlıq əlaməti, hətta sindromu sayılır.***

## Acizliyi, rəzaləti "qoçaqlıq" və "hünər" kimi göstərməkdə davam etmək artıq axmaqlıq sindromudur

Belə görünür ki, təhlükəsizliyinin, sabitliyinin, firavan həyat şəraitinin təmin edilməsi üçün Ermənistanın effektiv, müasir və həyat qabiliyyətli dövlət olmasının vacibliyini müzakirə belə etmək istəyən bir dənə də olsa hay tapılmır ki, ortaya çıxaraq, öz toplumuna bu barədə bir "ağıl" versin. Gah mifləri ortaya ataraq, özlərinin guya çox dərin köklərə, çox qədim tarixə malik olduqlarını, heç vaxt görmədikləri ərazilərə sahib olduqlarını göstərmək və ümumiyyətlə, bütün sadalananlarla bağlı "yoxsulluq komplekslərini" sanki ortaya qoymaq üçün dərindən-qabıqdan çıxırlar, gah da bunun, bu axmaqlığın acısını yaşadıqlarına görə özlərini ağır dərdli toplum olaraq sırımağa çalışırlar. Amma qətiyyən yanlışlıqlarını başa düşmək istəmirlər və hələ də axmaqcasına miflər yaratmaq və həmin miflərin kölgəsində yaşamaq, digər xalqlara, xüsusən də, türklərə nifrət toxumu səpmək kimi bir rəzaləti qəbul etmək, öz mövcudluqlarını ancaq buna sərf etmək ən böyük "hay amalı" sayılır.

Guya ki, nə vaxtsa erməni soyqırımının olduğunu məcburi şəkildə, özü də heç bir arqument, heç bir fakt olmadan bütün dünyaya sırımağa çalışan haylar bunun cəfəngiyyat olduğunu bilərək qəbul etməyənlərdən utanmadan inciyir, küsür və hətta onları özlərinə düşmən də hesab edirlər. Düşmən saydıqlarını, daha doğrusu düşmən kimi qələmə verdiklərini də guya "cəzalandırmaq" üçün də əllərini atırlar ən axmaq bir yola və başlayırlar bayraq yandırmağa. Bəli, etnik nifrətin təzahürü olaraq, bayraq yandırmaq kimi bir ənənə, daha doğrusu, axmaqlıq erməni cəmiyyətində ön plana keçir. Heç bir potensiala sahib olmadıqları başa düşdükləri üçün bayraq yandırmağı yeganə təsəlli hesab edən haylar, əslində, bununla öz acizliklərini açıb ortaya qoymuş olurlar. Hər dəfə bir yerə toplaşan haylar xüsusən də Azərbaycan bayrağını yandırmağı nədənsə hünər hesab edirlər. Azərbaycan Ordusunun, əsgərlərimizin, döyüşçülərimizin qarşısına çıxa bilməyən, dovşan kimi qaçan, silah-sursatını belə ataraq "aradan çıxan", Ermənistanın künc-bucağına üz tutaraq gizlənən, sonra da ara sakitləşən zaman ortaya çıxan haylar küçə-bacada Azərbaycan bayrağını yandırmağı "qəhrəmanlıq" hesab edirlər. Hələ üstəlik, bunu qəhrəmanlıq kimi göstərməyə, yaymağa və qürrələnməyə də çalışırlar. Bunun adı isə elə yenə də axmaqlıqdır. Çünki bu, nəinki qəhrəmanlıq, hər şeydən əvvəl acizlik, rəzillik əlamətidir və belə rəzilliklə qürrələnmək də axmaqlıqdan başqa bir şey sayıla bilməz. Amma əgər, bu rəzalət, bu acizlik ardıcıl şəkildə davam edirsə, hələ də bunu "qoçaqlıq" və "hünər" kimi sırımaq fikri ön plandadırsa, deməli, bu artıq axmaqlıq sindromudur.

## Bayraq yandırmağın, soyqırım uydurmalarının nəyə isə təsir edəcəyini düşünmək belə axmaqlıdır

Ən ağılsız yola əl atmaq hayların çoxdankı şakərləri hesab olunur və bu ənənələri də davam etmədədir. Tarix boyu öz səhvləri ucbatından hər dəfə "burunları əzilən" haylar bundan ağıllı və doğru nəticə çıxarmaq əvəzinə, ancaq bayraq yandırmaqla guya özlərini qisas almış kimi göstərib təskinlik tapırlar və bu da onların öz kölgələrindən belə qorxduqlarını təsdiq edir. Hər kəs yaxşı bilir ki, 44 günlük müharibə başlayana qədər özlərini dünyanın ən böyük qəhrəmanları kimi dünya ictimaiyyətinə sırımaq istəyən haylar döyüş başlayan andan ancaq qaçıb aradan çıxmaq haqqında düşünüblər və nəticədə də "bacardıqlarının" qaçmaqdan ibarət olduğunu ancaq göstəriblər. "Qoç döyüşünə qoç gərək", zərb məsəlində də deyildiyi kimi, sözsüz ki, igid döyüşçülərimizin, xalqımızın qəhrəman oğullarının, qoç ərənlərimizin qarşısında tab gətirməyə haylarda nə cürət, nə cəsarət, nə də qoçaqlıq çatışmayıb.

Döyüş meydanından qaçmağa fürsət tapa bilməyən və buna görə də igid döyüşçülərimizin ayaqları altında qalan dırnaqarası döyüşçülərinin aqibəti deyəsən qaçıb aradan çıxmağa fürsət tapan haylara dərs olmayıb. Geriyə belə baxmadan, silahını belə götürmədən az qala son nəfəsinə qədər qaçan və Ermənistana dürtülərək canını qurtaran haylar özlərini xəlvətdə hiss edən kimi də başlayıblar qaçmaqda tayı-bərabəri olmayanları barədə gah miflər qoşmağa, gah soyqırım deyib yardım istəməyə, gah da payraq yandıraraq özlərinə təskinlik verməyə. Bax elə hayların əsl mahiyyəti hər zaman bundan ibarət olub.

## Qurtuluş konsepsiyası yaratmaq haylar üçün nədənsə bayraq yandırmaqdan, yalandan soyqırım deyə qara-qışqırıq salmaqdan daha rasional görünmürmüş

Bayraq yandırmaq belə təsirli olsaydı, nəyə isə dəlalət etsəydi, torpaqlarını işğaldan azad etmək üçün Azərbaycan düz 30 ilə yaxın diplomatik mübarizə aparmazdı və həmin mübarizənin əvəzinə Ermənistanda olan bayraqlardan da çox erməni bayrağı yandırardı. Ən azından haylar görməli idilər ki, döyüş meydanında qələbəni qazandıran da bayraq yandırmaq, yaxud da hansısa soyqırım uydurmasına bənzər yalanlar olmadı. Zəfəri qazandıran vətənpərvərlik, igidlik, ərənlik, milli birlik, ilk növbədə də düşünülmüş və ağıllı siyasət oldu. Hələ də haylar başa düşə bilmirlər ki, bayraq yandırmaqdansa, ağıllı şəkildə dövlət qurmaq, həmin dövləti də düşüncə ilə idarə etmək, ölkəni səfalətdən, rüsvayçılıqdan xilas etmək, normal münasibətlər quraraq sülhə nail olmaq və beləliklə də, iqtisadi cəhətdən belə iflic vəziyyətində olan ölkə üçün qurtuluş imkanları yaratmaq doğru yoldur. Məsələ burasındadır ki, işğalçı ölkədə heç kim üçün bu sadalananlar nədənsə, bayraq yandırmaqdan, yalandan soyqırım deyə qara-qışqırıq salmaqdan daha rasional görünmür.

Daha dəqiq desək, bircə dənə də olsa hay tapılmır ki, rasional yolu görsün və aid olduğu topluma göstərsin. Göstərsin ki, güclü dövlət olmağın məhz bir xalqın soyqırıma məruz qalıb-qalmaması ilə heç bir əlaqəsi yoxdur. Başa salsın ki, əslində, dövlətçiliyi olan hər bir cəmiyyət üçün güclü dövlətin olması "aksiomatik" tələbdir və bayraq yandırmaqla da bu tələbi "qarşılamaq" mümkün deyil. Haylar gec də olsa başa düşməli idilər ki, rasionallıq dövlətin qurulmasının praktiki prosesindən, əsaslı metodologiyadan başlayır, hindu və aborigen ritualları bənzər qondarma "səhnəciklərdən" yox. Məsələ burasındadır ki, hələ də başa düşə bilməyiblər və başa düşənə də oxşamırlar. Əks halda, hər il aprelin 24-də bayraq yandırmaq kimi bir etnik nifrətin təzahürü olan axmaqlıqdan əl çəkərdilər. Siyasi identiklik dedikdə də, dövlət dedikdə də buraya soyqırım uydurmasının, yaxud da bayraq yandırmağın heç dəxli belə olmadığını başa düşərək, daşı ətəklərindən tökərdilər. Amma görünən odur ki, ətəklərindən tökmədikləri həmin daş sonda təpələrinə tökülürsə də "ağıllanmırlar" və elə sonsuza qədər axmaqlıq etməkdə də davam edirlər. Bu axmaqlıq da məhz etnik nifrətin təzahürü olduğu üçün, çətin ki, haylar bundan əl çəkələr və belə çıxır ki, etnik nifrətin təzahürü olan axmaqlıq elə hayların alınlarına yazılıb...

***İnam Hacıyev***



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Kallas gəldi və getdi - ermənipərəst siyasət dəyişəcəkmi?

***Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın Azərbaycana etdiyi səfər təkcə ikitərəfli münasibətlərdə mühüm bir dönüş nöqtəsi kimi qiymətləndirilməməlidir. Bu səfər daha çox bir sıra aspektlərdə dəyərləndirilməlidir. İlk öncə diqqət edək ki, xanım K.Kallasın səfəri Avropa İttifaqının Azərbaycana olan ikili münasibəti fonunda baş tutub. Məlumdur ki, 44 günlük vətən müharibəsindən sonra bir sıra Qərb institutları, əsasən də Aİ Azərbaycana qarşı son dərəcə qərəzli mövqedən çıxış edərək açıq şəkildə ermənipərəst siyasət yürüdüblər."Sülh müşahidəçisi" adı altında hərbi mütəxəssis qrupunun Azərbaycanla sərhəddə yerləşdirilməsi, Ermənistanın iqtisadi dirçəlişi üçün deyil, məhz Azərbaycana qarşı qisas müharibəsinə hazırlaşması üçün 100 milyonlarla dolların İrəvana ötürülməsi çox yaxın tarixdə baş verib.***

K.Kallasın Bakı səfəri, onun Prezident İlham Əliyevlə keçirdiyi görüş, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla apardığı müzakirələr Azərbaycan-Aİ əlaqələrinin yeni mərhələyə qədəm qoyması üçün mühüm proses oldu. Bu ən azından Aİ-nın neçə illərdir özü barədə formalaşdırdığı ermənispərəsət imicinin dağılmasına kömək etmiş oldu. Əlbəttə, Aİ-nın ermənipərəstlik reputasiyasından qurtulması üçün bunun davamının gətirilməsi hər şeydən vacibdir. Bu olacaqmı?- hər şeyi zaman göstərəcək.

Amma K.Kallasın bu səferinin digər bir önəmli tərəfi, ötən həftə Çin ilə mühüm iqtisadi tərəfdaşlıq sənədləri imzalayan Azərbaycanla əlaqələrə Aİ-nın verdiyi böyük dəyərdir. Bu qurumda gözəl anlayırlar ki, birtərəfli ermənipərəst siyasət bu mühüm Qərb strukturunun Cənubi Qafqazdakı proseslərə müdaxiləsini əngəlləyir. Çünki Azərbaycanla işgüzar əməkdaşlıq olmadan bölgədə baş verənlərə qoşulmaq, siyasi aktivliyini təsdiqləmək mümkünsüzdür. Xüsusilə nəzərə alsaq ki, Çin ilə mühüm iqtisadi layihələr reallaşdırmağa hazırlaşan Azərbaycanı mühüm iqtisadi aktivlik və güclü dəstək gözləyir, o zaman Aİ-nın rəsmi Bakı ilə münasibətləri yoluna qoymaq istəyini başa düşmək çətin deyil. Amma bu səfərlə bağlı Ermənistan mediasında yaranan təşviş daha çox diqqəti çəkir. Erməni ekspert və siyasətçilər Aİ-nın rəsmi Bakı ilə arasını düzəltmək istəyinin ermənispərəst siyasəti arxa plana keçirməsindən qorxurlar.

Onlar da anlayırlar ki, bu birtərəfli erməni "sevgisi" çox da davam edə bilməzdi. Çünki iqtisadi maraqlar siyasətin önündə gəlir. Diqqət edin: K.Kallasın Bakı görüşlərində Azərbaycanın Xəzər-Qara dəniz regionunda oynadığı strateji rol, habelə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında iştirakının önəmi xüsusi vurğulanıb. Bu gün Azərbaycan Avropanın 10 ölkəsinə təbii qaz ixrac edir və qaz təchizatının coğrafi şaxələnməsi baxımından qitədə lider mövqeyindədir. Bu isə o deməkdir ki, qarşıdakı illərdə daha böyük siyasi və iqtisadi oyunçuya çevriləcək Azərbaycanla sıx əlaqələr qurmaq Aİ-nın planlarına daxil olan vacib məqamdır. Ən azı ona görə ki, Aİ bölgəmizdə formalaşmaqda olan yeni münasibətlər sistemindən, xüsusilə Çinin iştirakı ilə bölgədə qurulacaq yeni iqtisadi proseslərdən kənarda qalmaq istəmir.

# Dünyanın böyük problemi: sonsuzluq

***Dünyada təxminən hər altı nəfərdən biri sonsuzluqdan əziyyət çəkir və dünyanın bütün ölkələrində bütün sosial qruplarda bu vəziyyət hökm sürür. Ümumdünya Səhiyyə Təşkilatının hesabatlarına görə, maddi rifahı yaxşı olan ölkələrdə böyüklərin 17,8%-nə, orta və aşağı gəlirli ölkələrdə isə 16,5%-nə bu diaqnoz qoyulur.***



## Sperma sayı 100 milyondan 15 milyona endi!

ÜST sonsuzluğu "kişi və ya qadın reproduktiv sisteminin xəstəliyi, 12 və ya daha çox aylıq müntəzəm qorunmayan cinsi əlaqədən sonra hamiləliyin əldə oluna bilməməsi" kimi xarakterizə edir. Hesabatda problemə xüsusi münasibət və bu əsasda ayrı-seçkiliyə son qoyulmasının vacibliyi vurğulanır. Bəyanatda deyilir ki, sonsuzluq milyonlarla insana təsir etsə də, mövzu hələ də yaxşı öyrənilməyib, həll yolları isə yüksək xərclər, sosial stiqma və digər məhdudiyyətlər səbəbindən bir çox insanlar üçün əlçatmaz olaraq qalır.



Dünyada həm kişilər, həm də qadınlar arasında nəsilartırma qabiliyyəti hər gün bir az da azalır. Əgər ötən əsr normal bir kişidə sperma sayı 100 milyon idisə dövrümüzün kişisində bu rəqəm 15 milyondur. Kişilərdə sperma sayının sürətlə azalmasının səbəblərinə gəlincə isə, araşdırmaya görə siqaret, alkoqol, narkotik, iqlim dəyişiklikləri, qidalanma, stress kimi faktorlar əsas səbəblərdir.

Son 10 ildə bu mövzu mətbuatımızda olduqca çox müzakirə edilən mövzudur. Bəzi mütəxəssislər sonsuzluğu ekokogiya ilə əlaqələndirir, bəziləri bunun qidalar sayəsində yayıldığını deyir, bəzisi isə uşaq bezlərinin təhlükəsindən danışır, bir qisim mütəxəssis də əlüstü qidalanma kafelərində təklif olunan qidaların və içkilərin konkret olaraq sonsuzluğa səbəb olduğunu deyir.

## Uşaq bezindəki təhlükə

Son 10 ilin ən dəbdə olan adətlərindən biri də anaların "pampers paradı"dır. Əgər siz cəmi 10 dəqiqə bir əczaxanada müşahidə aparsanız nə qədər uşaq bezi satıldığının şahidi olarsınız. Amma uşaq bezlərini istifadə edən valideyn ömründə bir dəfə bu bezin necə hazırlanması, nədən hazırlanması barədə maraqlanmayıb. Maraqlansa və istifadə edilmiş bezi kəsib içinə baxsa orda maye ilə islanandan sora yaranmış kiçik kristallara bənzəyən kütləni də görər və özünə sual verərdi: "Bu niyə belə olur?".

Həkimlər də uşaq bezlərinin sonsuzluq yarada biləcəyini istisna etmir. Əksəriyyəti uşaqlara hazır bez geyindirməyin tərəfdarı deyil. Ona görə ki, hazır uşaq bezləri sintetik məhsullardan hazırlanır. Əgər pambıqdan hazırlanmış bez olsaydı, bunun zərəri olmazdı. Hazır bezlər sidiyin, uşaq ifrazatının bədənə yapışıb qalmasına səbəb olur. Təbii prosesin əleyhinədir, o ifrazat bədəndən xaric olunursa deməli, uzaqlaşdırılmalıdır. Amma bezin içində saatlarla sidiklə təmas edən dəri uşağı narahat edir.



## Qadınlar geyimlərindəki təhlükədən xəbərsizdir

Ekspertlər deyir ki, qadınların uzun müddət dar şalvar geyinməsi damarların sıxılaraq qeyri-normal vəziyyət almasına, və bunun nəticəsində də rəhmdə iltihablanma, göbələk, ayaqların büküm yerlərində bədən yaralarına da səbəb olur. Bu cür geyimlər mütəmadi geyinilərsə rəhm və yumurtalıq xərçənginə belə səbəb ola bilər. Daha təhlükəlisi isə çox dar geyimlərdən istifadə edən, neylon və sintetikadan ibarət "kapron" corablar konkret olaraq sonsuzluğa səbəb olur. Gün ərzində soyuq havada bu kapron corablarla gəzən qadın bütün bədəninə rütubət yığır, qadınlıq orqanları xəstələnir və sonsuzluğa addım-addım yaxınlaşır. Maraqlansaq görərik ki, bütün yeni evlənən qızlar həkim müalicəsi olmadan, iynə-dərman dəstəyi olmadan hamilə qala bilmir. Bu isə doğulacaq körpəyə zərərdir. İynə-dərmanla yetişən fabrik toyuqları kimi uşaqlar da iynə-dərmanla zorakı yaradılır.

Kişilərin dar şalvar geyməsi kişi yumurtalıqlarının bədənə daha yaxın yerdə dayanmasına səbəb olur. Yumurtalar bədəndən daha aşağı temperaturda olmalıdır, amma dar geyim onları bədənə möhkəm sıxdığı üçün bədənin temperaturu ilə uyğunlaşır. Bunun nəticəsində də sperma hüceyrələrinin hərəkətliliyi və sayı aşağı düşür. Kişilər dar şalvar və dar alt paltar geydikcə sperma yollarının tıxanmasına və bu vasitə ilə sonsuzluğun yaranmasına özləri yol açır. Eyni zamanda dar geyimdə olan kişi saatlarla o geyimdə oturaq işdə işləyirsə vəziyyət daha da təhlükəli hal alır. Dəb adı altında illərdir bu cür şalvarları istehsal etməklə demoqrafiq artıma təhlükə yaradırlar.

## Energetik içkilər kişilik potensialını məhv edir

Energetik içkilərin tərkibi, bu içkilərin insan orqanizminə zərərləri barədə olduqca çox məlumatlar yayılır. Daha çox gənc nəslin istehlak etdiyi bu içkilər uşaqlara, hamilə qadınlara və ürək-damar xəstəliklərindən əziyyət çəkən insanlara qadağan edilir. Səbəbi çox sadədir - onun verdiyi süni enerji çox hallarda fəsad verir və ürəyin dayanmasına belə səbəb olur.

Belə ki, energetik içkilərin tərkibində "taurin" adlı maddə də olur. Bu maddə isə ürək fəaliyyətini gücləndirir və gücə düşən orqan qəfil dayanır. Energetik içkinin tərkibində olan qlükoza və kofein gənc orqanizmə olduqca zərərdir. Energetik içkilərin zərəri barədə nəinki bir qəzet səhifəsi yazı, hətta bir kitablıq araşdırma belə yazmaq olar. Qısaca qeyd edək ki, Fransa və Filippində, Norveç və Danimarka kimi ölkələrdə energetik içkinin satışına qadağa qoyulub. Çünki bu ölkələrin elmi-tədqiqat institutlarında energetik içkilərin sonsuzluğa və allergik xəstəliklərə səbəb olması barədə tutarlı tədqiqatlara imza atılıb. Almaniyada isə ümumiyyətlə energetik içkilərin istehsalı qadağan edilib.

## "Cola" potensial sperm qatilidir

Bir müddət əvvəl Danimarkada yerli alimlər 2 min oğlan üzərində araşdırma aparmışdılar. Məlum oldu ki, gündəlik 1 litr "Cola" içən oğlanlarda bu içkidən istifadə etməyənlərlə müqayisədə spermanın keyfiyyəti düz 30% aşağı olur. Bunun nəticəsi ilə sonsuzluğa aparıb çıxarır.

Həmçinin qərb ölkələrinin birləşmiş həkimlər qrupu da bir neçə il boyunca məhşur içkilərin, eyni zamanda "Coca - Cola"nın sonsuzluq yaratması faktını araşdırıblar. Təbii ki, araşdırmaların nəticələri elə də ürəkaçan olmayıb. Məlum olub ki, uzun müddət kolanın qəbulu, kişilərdə və qadınlarda sonsuzluqla nəticələnir. Buna səbəb içkinin hazırlanmasında istifadə edilən "kola qozu" verir. Məlumat üçün qeyd edək ki, keçmişdə bu qoz yalnız Amerikada bitirdi və onu hindu döyüşçülərə məcburi çeynədirdilər. Çünki əsgər cinsi istəyinin ardınca gedərək ordudan yayına bilərdi. Bu qozdan hazırda bəzi ölkələrin ordusunda əsgərələrə gizli şəkildə yedirilir. "Coca-cola"nın tərkibinə əlavə edilən bu məhsul da məhz cinsi zəifliyə, dolayısı ilə sonsuzluğa səbəb olur. "Coca-cola"nən xərçəng xəstəliyi yaratması faktı isə artıq təsdiqlənib, bu barədə yazmağa ehtiyac yoxdur.

## "McDonalds" bütün dünyaya sonsuzluq "bəxş edir"

Qarışqa kimi bütün dünyaya yayılan bu biznes Amerikanın büdcəsini artırmaq və dünya xalqlarına daha çox xəstəlik yaymaq üçün kurs götürüb. "McDonalds"ın bütün qidaları birmənalı olaraq insan orqanizminin düşmənidir. Təhlükəli maddələrdən ibarət yağda qızardılmış GMO-lu kartof, sıçan geni vurulmuş tərəvəz və göyərtilər, kişilik potensilaını məhv edən içkilər insan orqanizminin ən böyük düşməni olmaqla yanaşı Amerika büdcəsinin ən yaxın dostlarıdır.

Çünki dünya ölkələrində məhz bu geni dəyişdirilmiş qidalar sayəsində milyonlarla insan xəstəliyə tutulur, dolayısı ilə dünya əhalisi azalır, dərman biznesi çiçəklənir. "McDonalds"ın yeməklərinin sonsuzluq, piylənmə, allergik xəstəliklər yayması məsələsi bütün dünya ölkələrinin mətbuatında olduqca çox yazılan və müzakirə edilən mövzudur. Amma genetik modifikasiyaya uğramış məhsullarla "McDonalds"da qidalanan insanların orqanizmini necə uyğunlaşdırıblarsa bir dəfə gedən, yenə getmək istəyir. İnsan "görəsən yeməklərində asılılıq yaradan hansı maddəni istifadə edirlər?", - deyə düşünür.

Qeyd edək ki, "tez-bazar" hazırlanan qidaların tərkibindəki kimyəvi və fiziki dəyişikliyə uğramış qarışıq maddələr bədənin müqavimətini zəiflədir. Həftədə 3-4 dəfə "fast-food"la qidalanan kişilərin 42 faizinin spermatozoidinin tərkibi digər normal qidalanan kişilərə nisbətən dəfələrlə zəifdir.

## Texnologiya da sonsuzluğa səbəb olur

Nyu-York uroloqları yaşı 21-35 arasında olan çoxlu sayda kişi üzərində eksperiment apararkən onlardan 1 saat ərzində dizlərinin üzərində noutbuk qoyaraq işləmələri istənilib. Sonradan aparılan analiz kişilərin hamısında nəsil atırmaq imkanlarının azaldığını göstərib. Alimlər müəyyənləşdirib ki, bu, noutbukdan yayılan isti hava axını ilə əlaqədardır. Onlar kişilərə dizlərinin üzərində kompyuteri 11 dəqiqədən artıq saxlamamağı məsləhət bilir.

Həmçinin Argentinada aparılmış araşdırma naqilsiz internetin kişilərdə sonsuzluq yaratdığını ortaya çıxarıb. Tədqiqatçılar Wi-Fi istifadəçisi olan kişilərdə cinsi problemlərin meydana çıxdığını bildirirlər. Xüsusilə onların spermatozoidlərinin keyfiyyəti xeyli azalır. Bu isə nəhayətdə sonsuzluğa aparıb çıxarır. İlkin versiyaya görə, Wi-Fi istifadəçilərində spermatozoidlərinin keyfiyyətinin azalmasına naqilsiz qoşulma zamanı əmələ gələn elektromaqnit dalğaları səbəb ola bilər.

Eyni zamanda, mikrodalğalı sobalarda isidilən yeməklər də sonsuzluq yarada bilir. Belə sobalar yüksək nisbətdə radiasiya göndərərək qida atomlarını sürətləndirir və isinmələrini təmin edir. Bu sobanın içindəki qidaya göndərdiyi radiasiya, bir "WI-FI" şəbəkəsindəki radiasiya sıxlığının təxminən 100.000 dəfə artıqdır və dolayısı ilə sonsuzluq yaratması riski də bir o qədər çoxdur.

***Lalə Mehralı***

ARAŞDIRMA

## "Bütün yol boyu bərpa və quruculuq işlərinin şahidi oluruq" -

# SİYASİ PARTİYA RƏHBƏRLƏRİ



***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, politoloq və siyasi şərhçilərin, habelə internet televiziya kanalları rəhbərlərinin, qəzet redaktorlarının və digər jurnalistlərin növbəti birgə səfəri bu dəfə 29 aprel tarixində Laçın şəhərinə təşkil olunub. SİA mövzu ilə bağlı partiya sədrlərinin fikirlərini öyrənib.***

**Azad Vətən Partiyasının sədri Akif Nağı:** "Biz hələ Laçın şəhərinin özünə çatmamışıq, yaxınlaşırıq. Həkəri çayının sahilində dayandıq. Sonra Zabuqçay su anbarı var, orada da dayandıq. Digər görməli yerlərdə də dayandıq. İndi də Həkəri çayının sahilindəyik. Təəssürat olduqca gözəldir. Hər tərəf



füsunkar təəssürat bağışlayır.

Biz keçdik Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının ərazilərindən. Hər yerdə diqqətlə baxdıq: həm erməni vəhşiliklərinin izlərini, həm də bərpa və quruculuq işlərinin geniş şahidi olduq. Hər yerdə tikinti işləri gedir: yol çəkilişləri, evlərin inşası - hərəkətlilik çox sevindiricidir. Sus kəndindən, Bəylik kəndindən keçdik. Hər yerdə yeni evlər tikilib, insanlar artıq həmin ərazilərdə yaşayır, həyətlərdə uşaqlar var. Həyat öz axarına qayıdır. Bu, çox qürurverici və ümidverici bir mənzərədir. Biz də buna sevinirik. Eyni zamanda Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinə, hörmətli Ədalət Vəliyevə təşəkkür edirik ki, belə bir təşəbbüslə çıxış ediblər. Bu, həm bizim məlumatlanmağımız, həm də partiya rəhbərləri, siyasi ekspertlər və mətbuat rəhbərlərinin prosesi yaxından izləməsi baxımından çox vacibdir.

Təmas baxımından da əhəmiyyətlidir - partiya rəhbərlərinin, mətbuat nümayəndələrinin və siyasi ekspertlərin birlikdə səfərə çıxması, bir araya gəlməsi, özlərini eyni camiyanın üzvü kimi hiss etmələri cəmiyyətin siyasi mədəniyyəti üçün müsbət haldır. Ümid edirik ki, bu cür təşəbbüslər davamlı olacaq".

**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı:** "Laçın rayonunun ərazisinə daxil olduq. İlk tanışlığımız Həkəri çayı üzərində Azərbaycan Dövlət Su Ehtiyyatları Agentliyi tərəfindən qurulan bu nəhəng və geniş sahəni əhatə edən su anbarı ilə oldu. Niyyət gələcəkdə ətraf yaşayış məntəqələrini təsərrüfat suyu ilə təmin etməkdir.

İndi biz Laçının dolama yolları ilə Həkəri çayı boyunca Laçına doğru irəliləyirik. Yol boyu sol tərəfdə, Həkəri çayınının axınının sağ tərəfində Azərbaycanın şanlı bayrağı ilə ermənilərin də bayrağının bir-birinə yaxın sancıldığının şahidi oluruq. Sərhəd demək olar ki bir-birinə yaxın yerdən keçir. Burada təbiət çox qeyri-adidir. Hər tərəf yaşıllıqdır. Biz ağac və kolların əhatəsi ilə hələ təmiri başa çatmamış, ancaq torpaqdan ibarət yol ilə hərəkətimizi davam etdiririk. Bütün yolboyu bərpa və quruculuq işlərinin şahidi oluruq. Əsas diqqət Həkəri çayını bənd arasına salmaq və yol infrasturukturunu yaratmaqadır. Burada bununla bağlı işlər getməkdədir və davam edəcəkdir.



İkinci dayanacağımız Laçının girişi, Həkəri çayının sahilidir. Burada bulvar da yaradıblar. Biz artıq bundan sonra Laçın şəhərinin özünə daxil olacağıq. Laçın şəhərinin alt hissəsində, Həkəri çayının qırağında çox möhtəşəm bir hava var. İnsan buradan ayrılmaq istəmir. Bildirim ki, istirahət parkı, yaşıllıq zonası salınır. Gördüyünüz yolun o tərəfi Həkəri çayının başlanğıc hissələrində hesab olunur və biz bu kəndi keçərək artıq Bəylik kəndinin ərazisinə daxil olacağıq. Bu kəndlər öncədən də bir-birinə yaxın olmuşlar. Hal-hazırda Laçın şəhərinin birinci mərhələdə olan birinci fazası eyni zamanda Zabux və bununla yanaşı Sus kəndi tamamilə təhvil verilmiş hesab olunur. Növbəti planlarımıza əsasən Bəylik kəndinin açılışı gözlənilir və hal-hazırda lahiyələndirmə mərhələsindədir".

**Ağ Partiyasının sədri Tural Abbaslı:** "Bu görüş artıq altıncı dəfədir ki, təşkil olunur. Təbii ki, biz hər dəfə qeyd elədiyimiz kimi, bu görüşləri çox müsbət qiymətləndiririk. Həm ona görə ki, bu tarixi torpaqlarımıza, illərlə həsrətində olduğumuz torpaqlara gəlirik, burada görülən işləri görürük və illərlə talanmış torpaqlarımızda həyatın necə qayıtdığına şahid oluruq. Bu, təbii ki, bizi qürurlandırır.

Eyni zamanda, şəhidlərimizin qanı bahasına bu torpaqların azadlığını görürük. Təbii ki, partiyalar və media nümayəndələri, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə qeyri-rəsmi formatda görüşlərimiz olur, söhbətlərimiz olur, fikir mübadiləsi aparılır, ümumi yanaşma formalaşır, bir-birimiz haqqında olan, tutaq ki, önyarğılar demək olar ki, aradan qalxır, yeni məsələlər müzakirə olunur. Bütün bunlar nəzərə alındıqda, təbii ki, bu görüşləri müsbət qiymətləndirirəm. Yenə deyirəm, mənim həmişə bura olan səfərlərimizlə bağlı son sözüm budur: Gün o gün olsun, digər tarixi torpaqlarımıza məsələn, Zəngəzura da belə səfərlər təşkil olunsun və biz orada birlikdə iştirak edək. Yənı, mən düşünürəm ki, belə səfərlər Azərbaycanın yeni reallıqlarına uyğun, yeni siyasi münasibətlər sisteminin yaranmasında xeyli faydalı ola bilər. Artıq bu əsrin əvvəllərindəki, məsələn, 90-cı illərin sonundakı münasibətlər sistemi sıradan çıxıb. Artıq yeni, daha sivil, daha mədəni, daha verimli bir münasibətlər sisteminin formalaşmasına töhfə verəcəyinə inanıram".



**Böyük Qurtuluş Partiyasının sədri Fazil Mustafa:** "Bizim Prezident Administrasiyasının müvafiq şöbəsininin təşəbbüsü ilə Laçın şəhərinə artıq 6-cı səfərimizdir ki bu gerçəkləşir. Ədalət Vəliyev də bizimlə bu səfərlərdə iştirak edir və çox gözəl şərait yaradır ki, hər bir detal ilə tanış olaq, quruculuq işləri haqqında məlumat alaq. Mən hesab edirəm ki, burada biz çox yaxşı şəkildə məlumatlanırıq və bu da bizim üçün bu torpaqların gələcəyi ilə bağlı hansısa fikrə sahib olmağımıza imkan yaradır. Düşünürəm ki, bu siyasi partiyaların xüsusilə də informasiya əldə etməsi faydalıdır. Çünki biz də ölkənin bərpa və quruculuq işləri ilə bağlı məlumatlı olmalıyıq ki, təşəbbüsləri qaldıra və fikirlər bildirə bilək.

Biz qürur duyuruq ki, Azərbaycan Prezi-



denti və Onun komandası həqiqətən də burada möhtəşəm bir iş görür. Quruculuq, bərpa işləri, iş yerləri üstəlik də insanların bura köçürülməsinin mərhələli şəkildə baş verməsi sevindirici haldır. Bu bizim böyük bir tarixi uğurumuzdur".

***Ayşən Vəli***

# Milli mətbuat-150: Heç olmaz ki, doğru söz yerdə qalsın

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

**I YAZI**




Zaman-zaman müxtəlif tarixi hadisələr ayrı-ayrı xalqların tarixinə yazılmaqla əsrlər, qərinələr sonra onun qürur mənbəyinə çevrilir. Filan tarixdə dünyanın bu ölkəsində kitab nəşr olunmuş, filan tarixdə bu ölkədə televiziya, radio yaranmış, filan tarixdə ilk təhsil ocağı fəaliyyətə başlamış, filan tarixdə kompüter bu ölkədə kəşf edilmiş və sair kimi hadisələr bu gündən dünənə açılan pəncərədə parlaq görünən, mənsub olduğu xalqın, millətin inkişafını göstərən nümunələrdir.

Hər bir xalqın tarixində onun ilk mətbu orqanının yaranmasının da böyük əhəmiyyəti olduğundan həmin gün zamanın bütün dönəmlərində böyük təntənə ilə qeyd edilir, anılır. Çünki qəzet kütlələr arasında ən sanballı təbliğat vasitəsi kimi təsdiqlənmiş, bütün zamanlarda öz sözünü deməyi bacaran, təbliğatı vasitəsilə mənsub olduğu xalqının maariflənməsində, insanlar arasında ziya nurunun yayılmasında, savadsızlığın, avamlığın aradan qaldırılmasında dəyərli vasitə olmuşdur.




Qəzet bütün dövrlərdə insanlara müasir dünya görüşü bəxş etmiş, dövrün ziyalılarının üz tutduğu ata ocağına çevrilmiş, onların millətin ayılması üçün yazdıqlarının ümumi kütləyə çatdırılmasında yeganə vasitə olmuşdur. Bu il 150 yaşı tamam olan, bünövrəsi qəzet üzərində qoyulan milli mətbuatımız kimi...

### Milli mətbuatımız necə yarandı: üç illik mübarizə

Hər bir dövlətin dövri mətbuatının yaranması müxtəlif əsrlərə təsadüf edir. Əgər öz dövri mətbuatını Avropa XVI əsrdə, Rusiya XVIII əsrin ilk illərində yaratmışsa, Azərbaycan buna 1875-ci ildə nail olmuşdur. Qədim tarixə, milli dəyərlərə, yüksək mədəniyyətə malik olan xalqın öz mətbuatını yaratması nə üçün XIX əsrin sonlarına təsadüf etmişdir kimi sual meydana çıxır. Bunun bir neçə səbəbi var.

Tarixdən Azərbaycanda daim kimlərinsə gözünün, tamahının olduğunu bilir, bu ulu torpağı, milli sərvətlərimizi mənimsəyib ərazilərini genişləndirmək istəyində olanları tanıyırıq.

Həmin dövrlərdə hansı ki, Avropada, Rusiyada milli mətbuat yaranırdı, o dövrlərdə Azərbaycan tarixin müxtəlif acı dönəmlərini yaşamaqda, feodal mütləqiyyətinin əzablarına tabe olmaqda idi. Dövrün çətinlikləri azərbaycanlıları məngənəsində sıxır, onların əl-qolunu bağlamaqla, böyük ciddi-cəhdlə özünə tabe etdirirdi.

Həmin dövrdə bir çox xalqlar kimi, azərbaycanlılar da dünyada baş verən xəbərləri əsasən səyyahlardan, uzaq ellərdən gələn qasidlərdən, xarici səfirlərdən, tacirlərdən, şahların, hakimlərin fərmanlarından, şəhər və kəndlərdəki xüsusi carçılardan alırdılar.

Çarizm doğru söz danışanın dilini kəsdiyi, susdurduğu halda, təbii ki, milli mətbuat yaratmaq təşəbbüsündə olanlara imkan verməzdi. Çünki bunun nə ilə nəticələnəcəyini yaxşı bilirdi. Avropada, Rusiyada-gözünün qarşısında milli mətbuatın yaranmasının xalqa, millətə müsbət nəticələrini görən çarizm müstəmləkə siyasətində bunun heç də yaxşı nəticə verməyəcəyini anlayırdı.

Əgər bu siyasəti 70 il əsarətində yaşadığımız Sovetlər Birliyinin müstəmləkəçilik siyasəti ilə müqayisə etsək, xalqın eyni bəlalara düçar olduğunu, nəyə nail olmaqda ləngidildiyinin yalnız bu siyasətlə bağlılığını aydın görərik.

Məgər 1917-18-ci illərdən 1990-cı illərə qədər xalqın yaşadıqları-müstəqilliyinin zorla əlindən alınması, 70 il Rusiya imperiyasının əsarətində yaşaması, torpaqlarının erməni əli ilə işğalı, repressiyalar, ləkələr, qırğınlar, qanlar, xalqın saysız-hesabsız dərəcədə şəhid verməsi tarixən davam etdirilən bu siyasətin bəhrələri deyildimi?

Bəli, yuxarıda da qeyd etdiyimiz kimi, söylənən sözün kütlələrin şüurunda inqilab yaradacağını gün kimi aydın bilən, bununla ictimai quruluşda dönüş yarana biləcəyinə əmin olan çarizmin ən ehtiyat etdiyi sahə mətbuat idi. Həmin dövrdən xeyli sonra qəzet çıxarmaq təşəbbüsündə olan Həsən bəy Zərdabi kəskin etirazlarla qarşılaşdı. Üç illik gərgin mübarizədən usanmayan, bezməyən H. Zərdabi qəzet işinin reallaşması üçün çox əziyyət çəkməli oldu. Onun "Rusiyada əvvəlinci Azərbaycan qəzeti" məqaləsində oxuyuruq: "Hər kəsi çağırıram - gəlmir, göstərirəm görmür, deyirəm - qanmır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim sözümü eşidənlərdən heç bir qanan olmasın. Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürür kimi əriyib deşilir, habelə söz də... Əlxüsus doğru söz... Belədə qəzet çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur... Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar... Sonra düşmənin düşmənliyi, dostun dostluğu və dost göstərən doğru yolun doğru olması aşkar olar."

H. Zərdabinin bu fikirləri onun bir tərəfdən nə qədər geniş dünyagörüşə malik olduğunun, xalqının maariflənməsini ürəkdən istəməsinin, bunun üçün mübarizədən əl çəkmədiyinin, millətinə yalnız sözlə, doğru sözlə düzgün yol göstərə bildiyinin göstəricisi idisə, digər bir tərəfdən çar mütləqiyyətinə nifrətinin, onu devirməyin yalnız xalqın maariflənməsi ilə mümkün ola biləcəyi səbəbindən qəzet çıxarmaq istəyində olmasının göstəricisi idi. Və beləliklə, uzun və gərgin mübarizə dolu illər arxada qalır. H. Zərdabi qəzet çıxarmaq üçün hökumətdən nəhayət ki, icazə ala bilir. Çətin bir dövrdə çiyinlərini ağır bir yükün altına verir.

### Hürüfat məsələsi və əslində "Əkinçi"...

Hökumət ona qəzet çıxarmaq üçün icazə verəndə düşünürdü ki, onsuz da Qafqazda ərəb hürufatı yox dərəcəsindədir, belə bir vəziyyətdə çətin ki, Zərdabinin arzuları həyata keçə. H. Zərdabi isə bütün bunları lap əvvəldən görür və bu çətinliyə sinə gərəcəyinə inanırdı. Hürufat üçün neçə-neçə şəhərlər gəzən, neçə-neçə qapılar döyən, neçə-neçə insanlara xahiş edən H. Zərdabi axır ki, buna nail oldu. Bu işdə ona həmin dövrdə Türkiyənin İstanbul şəhərində "Babi-ali caddəsi"ndə mətbuat və kitab ticarəti sahəsində işləyən azərbaycanlılar böyük köməklik göstərmişlər. H. Zərdabi xatirələrində onların əməyini yüksək dəyərləndirdiyini qeyd etmişdir.

Zərdabinin çox böyük əziyyətlərindən sonra, nəhayət, 1875-ci ilin iyul ayının 22-də "Əkinçi" qəzeti ilə milli mətbuatımızın bünövrəsi qoyuldu. H. Zərdabi ilə bağlı tədqiqatlarda oxuyuruq ki, qəzetin adı ilə bağlı sonralar fikir ayrılıqları mövcud olmuşdur. Qəzetə nə üçün məhz "Əkinçi" adının qoyulması bir çox tədqiqatçıların ayrı-ayrı mülahizələr irəli sürməsinə səbəb olmuşdur. Onlardan bəzilərinin fikrincə "Əkinçi" elə lap əvvəldən kənd təsərrüfatı məsələlərini əks etdirən bir qəzet olmalı imiş. Lakin qəzetə verilən "Əkinçi" adı da təsadüfi deyildi. "Əkinçi" adı elə onun demokratikliyinin göstəricisi idi.

"Əkinçi"nin qarşısında hər şeydən əvvəl siyasi vəzifə durdurdu və əkinçilik vəzifələri ona tabe idi. Dini mövhumata qarşı mübarizə, dini məktəblərin pislənməsi, yeni, dünyəvi elmlərin geniş təbliği, xalqı azadlığa çağırmaq, geniş maarif uğrunda mübarizə əkinçilik məsələləri dairəsindən çox-çox kənara çıxırdı. Qəzetin bölmələrinə ayrı-ayrı adlar qoyulmasına baxmayaraq onlar adları çəkilən bu məsələlərlə üzvi surətdə bağlı idi. Lakin Zərdabi o dövrdə qəzetə diqqəti çəkən ad verə bilməzdi. İllərlə çar müstəmləkəçilərinin süründürməçilik əzablarına tab gətirib qəzet çıxarmaq üçün izin alan Zərdabi yaxşı düşünürdü ki, qəzetin adı da, orada yazılanlar da zərrəbinlə analiz ediləcək. Buna görə də çarizmin diqqətini çəkməyən ad altında, sərlövhələr altında nəzərində tutduqlarının hamısını həyata keçirməyə başladı. Bütün bunları ona məsləhət də etmişdilər. Həsən bəy Zərdabi "Həyat" qəzetində dərc edilmiş "Rusiyada əvvəlimci türk qəzeti" adlı məqaləsində yazırdı: "Bizim qubernator... general Staroselski, doğrudur, xalis rus idi, amma övrəti gürcü qızı idi. Ona görə də Qafqazın yerli əhalisini artıq dost tuturdu... mən ona dərdimi deyəndən sonra məsləhət gördü ki, qəzetin adını "Əkinçi" qoyum ki, guya məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki, senzorluğu qəbul eləsin. Bu tövr ərizə verib izin aldım".

### Əgər sadəcə "Əkinçi" idisə...

Qəzet əkinə həsr olunmuşdusa, əkinçilik qaydalarından danışırdısa, gəlin, qəzetin müxtəlif saylarında dərc olunmuş ayrı-ayrı yazılara diqqət yetirək.




”...Bizim xalq dünya işlərini belə soyuq tutmağı bilir ikən biz ”Əkinçi” qəzetini çap etdirməyi başlamışıq və bizim təkdə bir yuxudan oyananlarımıza ümid olmuşuq ki, xalq qəzet oxuyub ondan mənfəətbərdar olmağa və dünya işlərindən xəbərdar olmağa səy edəcəklər. Əlbəttə, yəqin ki, onlar səy elədiklərinə keçən il bizim altı yüzəcən müştərimiz var idi. Amma indi belə məlum olur ki, onlar xalq qəzeti oxumağa səy etmirlər və yəqin fikir ediblər ki, xalq qəzeti oxumağa adət edib və özü onu alıb oxuyacaqdır. Lakin iki aydır bizim qəzet gələn ilə çap olunmaqdan ötrü qəzetimizdə elan basdırırıq, amma buçağadək ancaq qırx adam onu gələn ilə almağa xahiş edib”.

”Əkinçi”,
1 yanvar, 1876-cı il

”...Mənim dostum... mənə yazır ki, haçan elmi-əbdan bəhsindən əl çəkəcəksiniz və o bəhsin qəzetdə nə işi var? Ondan əlavə yazır ki, ol qədər qəzetdə elmi təhsil xüsusunda yazırsınız ki, qorxuram bu ənqərib zamanda xalqın qəzet oxumaqdan rəğbəti kəsilsin... Salisən, qəzet dərviş kimi nağıl deyə bilməz, onun borcudur ki, işlərin yaxşı və yamanlığını ayna kimi xalqa göstərsin, ta xalq öz nikbədindən xəbərdar olub onun əlacının dalıncan olsun...Pəs, dostum, doğru deyiblər ki, əlhəqq mürrün ( doğru söz acı olur). Amma bizə hökm olub ki: ”qilil-haqq və löv kanə mürrün ( deyin sözün doğrusunu acı da olsa)!”.

”Əkinçi”,
14 aprel, 1876-cı il

”...Ay qardaşlar, bizlərdə qardaşlıq həmiyyəti yoxdur: qart-qurt rus dili bilənlərimiz rus qəzeti gətirdillər ki, onu əvamünnas görüb onlara artıq hörmət eləsin. Şaltay-baltay rus yazısı bilənlərimiz rus qəzetlərinə məktublar göndərirlər ki, onlar çap olunanda ruslar ona hörmət etsin. Heyhat, biz kor olmu-



şuq ki, bircə qəzeti də saxlaya bilmirik və bununla belə qeyri millətlərə gülürük...”.

”Əkinçi”,
25 iyul, 1876-cı il

”... Bizim Qafqaz vilayətinin bir şəhərində iki şəxs bir-birilə belə söhbət edirlər:

Sual: ”Əkinçi” qəzeti deyir ki, zamanımız dəyişilib. İndi elm təhsil etmək gərək. Ona binaən lazımdır elm kitabları gətirdib öz dilimizdə elm öyrənmək.

Cavab: O elmləri öyrənmək bizə lazım deyil. Niyə ata-babalarımız o elmsiz yolla getdilər, biz edə bilmədik? Bizim öz elmimiz bizə bəsdir və əgər hər kəs o elmləri öyrənmək istəsə, getsin xarici dillərdə öyrənsin. Dəxi elm kitablarını gətirdib öz dilimizə tərcümə etdirib çap etmək nə lazım? Və əgər çap etdirsək də o kitablardan nə olacaq? Ev buzovundan öküz olurmu?”.

”Əkinçi”,
9 avqust, 1876-cı il

## Zərdabinin siyasəti

Zərdabi yeri gəldikcə, qəzetin əkindən,




ziraətdən bəhs edən bir qəzet olduğunu qeyd edirdi. Lakin bunun özü də Zərdabinin siyasi addımlarından biri idi. Qəzetin ideya istiqaməti artıq çar məmurlarına məlum idi. Belə bir vaxtda Zərdabi üzərində senzura nəzarəti güclənmişdi. Oxucular isə, rus-türk müharibəsi getdiyindən qəzetdə bu barədə xəbərləri oxumaq istədiklərini bildirirdilər. Belə olduqda Zərdabi müharibə xəbərləri oxumaq istəyən abunəçilərə cavab olaraq yazmışdı:”...İndi bizim qəzetə oxuyanlar bizdən daha təzə xəbərlər istəyir. Amma... Bizim qəzetənin adı məlum edir ki, onun ümdə mətləbi əkin və ziraət və elm xəbərləri olsun. Ona binaən əgərçi bu halda işlər dəyişildiyinə tazə xəbərlər artıb və qəzet oxuyanlar artıcaq müştaqdırlar, lakin biz nəinki irəlikindən ziyadə xəbərlər yaza bilirik, hətta bəzi səbəblərə ol qədr də yazmağa vahimə edirik. Belədə müştərilərimizdən iltimas olunur bizdən rəncidə-xətir olmasınlar ki, onların könlü istədikcə tazə xəbərlər yazmaq olmur”.

H. Zərdabi kənd təsərrüfatına aid dərc etdiyi məqalələrdə belə köhnə cəmiyyətin qayda-qanunlarının, əkinin feodal-patriarxal üsullarla aparılmasının yaramazlığını göstərir, yeni təsərrüfat formalarına keçməyin üstünlüyünü təbliğ edirdi. Həmçinin Azərbaycanın iqtisadiyyatının inkişafı da qəzetdə açıqca göstərilirdi. Bütün bunlar xalqı öz hüquqları uğrunda mübarizəyə səsləmək idi. Dövrün sərt qanunları qarşısında bir qəzet yazıları ilə çıxış etmək, kütlələr arasında iş aparmaq doğrudan da böyük hünər tələb edirdi. Bu hünər isə Zərdabidə xalqına olan sevgisindən, millətinə bağlılıq hissindən formalaşmışdı. Onu gözləyəcək bütün təqibləri göz önünə alaraq davam etdirdiyi işləri əsrlər sonra da Zərdabinin Azərbaycan xalqının ictimai həyatında xidmətinin, rolunun nədən ibarət olduğundan danışacaq.

## Baş məqalə təşvişi... Və Zərdabi yanaşması

H. Zərdabi qəzetin proqramını çar məmurlarına təqdim edəndə onlar proqramdakı baş məqalələr bölməsi haqqında çox böyük təşviş hissi keçirmişlər. Və ondan tələb etmişlər ki, qəzetin bu bölməsində nədən yazılacağı barədə məlumat versin. Demək ki, bu bölmə onları çox narahat etmiş və baş məqalənin xalq arasında hər hansı bir ictimai fikri formalaşdırmasından hələ əvvəldən qorxurlarmış. Ona görə də dəfələrlə Zərdabidən tələb edirmişlər ki, bu bölməni proqramdan çıxarsın: niyə baş məqalədə deyiləcək məsələlər barədə qəzetin digər bölmələrində danışmaq olmaz?

Zərdabi isə baş məqalələrdə nədən söhbət açılacağı barədə danışa bilməzdi. Çünki çar məmurlar bir bəhanə axtarırdılar ki, qəzetin işıq üzü görməsinə mane olalar. Lakin sonralar Zərdabinin bu barədə yazdıqlarını oxuyarkən, sözün həqiqi mənasında, adam kədərlənir, bir ziyalı ömrünün nə qədər dəyərli, qiymətli olması qarşısında heyrətlənir. O, yazırdı: ”Siz məndən tələb edirsiniz ki, ”Əkinçi” qəzetinin proqramını mükəmməlləşdirim, daha doğrusu, xüsusilə yerli ehtiyaclara və tələbata həsr edilmiş baş məqalələr adı altında nə demək istədiyimi aydınlaşdırım və soruşursunuz ki, bu məqalələri qəzetin digər şöbələrindən birində, xüsusilə elm şöbəsində vermək olmazmı? Doğrudur, mən baş məqalələrdə toxunmaq istədiyim ehtiyaclar haqqında digər şöbələrdəki məqalələrdə də danışmaq olar, lakin nəqli xarakter daşıyan həmin məqalələrdə bu həyatın qüsurlarını xalqa göstərmək, bilavasitə qüsurlardan bəhs etməklə oxucunun diqqətini özünə cəlb edə biləcək, baş məqalələrdəki qədər münasib deyildir. Buna görə də mən hesab edirəm ki, ”Əkinçi” qəzeti üçün baş məqalələr zəruridir və bu məqalələrsiz qəzet nəinki inkişaf etmiş, hətta yarıminkişaf etmiş adamlar tərəfindən həvəssiz oxunan məlumat yığını olcaqdır. Bizim məhz yerli ehtiyaclarımıza və tələblərimizə gəldikdə isə, mən bunlar haqqında baş məqalələrdə danışacağam. Bunun nə demək olduğuna cavab vermək, mahalın müsəlman əhalisinin ehtiyacının həmısını sərf etmək demək olardı. Hər kəs mənimlə razılaşar ki, qaba avamlığın, dilənçiliyin, aclığın və s. səbəbləri haqqında bu qısa izahatda danışmaq mümkün deyildir. Bu səbəblərin şərh edilməsi və onlara vasitə göstərilməsi ”Əkinçi”nin baş məqalələrinin predmeti olacaqdır”.

Bu fikirlər Azərbaycan Respublikası Elmlər Akademiyası yanında Respublika Əlyazmaları Fondundan, Həsən bəy Zərdabinin əlyazmaları fondundan götürülmüşdür. Bu sətirləri oxuyarkən insanda belə bir təəssürat yaranır ki, Zərdabi ”Əkinçi” qəzetinin təqiblərlə üzləşdiyi anlarda üzdə, yəni qəzetin bağlanmaması naminə nələri deməməyə məcbur idisə, əlyazmalarında əslində kim olduğunu, nə demək, nə etmək istədiyini açıq şəkildə yazır, sanki çar mütləqiyyətinin yaratdığı narahatlığı əlyazmaları ilə ”bölüşürdü”.

Bu əlyazmalarla tanış olan hər kəs Zərdabinin nə kimi çətin maneələri dəf etdiyini, milli mətbuatın yaradılması yolunda hansı çətinliklərlə üzləşdiyini, həyatını hər an ölüm təhlükəsi ilə yaşadığını açıq şəkildə hiss edir. ”Əkinçi” səhifələrində yazılanlarla tanış olduqda isə onun doğrudan da xalq qarşısında xidmətlərinin sonsuz olduğu görünür. O qədər təqib olunmasına baxmayaraq, yenə də sözünü demək cəsarətini göstərməsi, kütlələri zülmdən, işgəncədən azadlığa çağırmaq qabiliyyəti əsl qəhrəmanlıq nümunəsidir.

## 150 yaşlı milli mətbuatımız

Ölkə Prezidentinin 25 aprel 2025-ci il tarixli Sərəncamı ilə milli mətbuatımızın 150 illik yubileyi ölkəmizdə geniş şəkildə qeyd olunacaq. Sərəncamda qeyd olunan fikirlər 150 yaşlı mətbuatımıza verilən qiymət və dəyərdir: XIX əsrin ikinci yarısında dünyanın neft və sənaye mərkəzlərindən birinə çevrilmiş və iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əsaslı dəyişikliklər baş vermiş, maarifçilik hərəkatı genişlənməyə başlamış, milli mətbuatın yaranması zərurəti meydana çıxmışdı. Məhz buna görə də 150 il əvvəl - 1875-ci il iyulun 22-də görkəmli ziyalı, təbiətşünas alim və maarifçi-publisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdirdiyi ”Əkinçi” qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Cəmi iki il fəaliyyət göstərən qəzet maarifçi ideyaların carçısı olmuş, cəhalətə və xurafata qarşı kəskin məqalələr dərc etmiş, milli özünüdərkin, ictimai, siyasi və bədii fikrin inkişafına, mütərəqqi jurnalist nəslinin yetişməsinə önəmli töhfə vermişdir.

”Əkinçi”dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışlar.

Bəli, ”Əkinçi” qəzetinin nəşri Azərbaycan xalqının ictimai fikir tarixində ən parlaq hadisə və demokratik əhval-ruhiyyəli insanların həyatında, sözün əsl mənasında, bir bayram oldu. İlk mətbuat orqanı olan bu qəzet savadsızlığın hökm sürdüyü bir cəmiyyətdə yaranaraq xalqa mövcud quruluşun iç üzünü daha aydın şəkildə, sadə dildə çatdır-



maq kimi vəzifələri qarşısında ali məqsəd olaraq qoymuşdu. Onun əsas məqsədi ictimai-siyasi məsələləri öz səhifələrində işıqlandırmaq idi.

Zərdabi bu qəzet vasitəsilə Azərbaycan xalqının özünüdərkini formalaşdırmaq, onu cəhalət və avamlıq bəlasından xilas etmək, labüd cəmiyyətin çirkinliyini cəmiyyətə göstərmək, xalqı öz hüquqları və azadlıqları uğrunda mübarizəyə səsləmək istəyirdi. Və buna nail oldu da.

150 illik tarixi yolda gördüklərimiz, yaşadıqlarımız, əldə etdiklərimiz və salnaməyə çevirdiklərimizin hər biri isə sələfimizə layiq xələf olduğumuzun göstəriciləridir.

***Mətanət Məmmədova***

# Amerikanı sarsıdan 100 gün

*ABŞ Konqresi Trampa qarşı impiçment elan edib*




Demokrat konqresmen Şri Tanedar ABŞ prezidenti Donald Trampa qarşı 7 impiçment maddəsi təqdim edib. Miçiqanlı konqresmen Şri Tanedar ABŞ Konqresinin Nümayəndələr Palatasına prezident Donald Trampa qarşı impiçment maddələri təqdim edib. Bu barədə o, X sosial şəbəkəsində məlumat verib: ”Mən prezident Trampa qarşı impiçment maddələri təqdim etmişəm. Tramp Konstitusiyaya, Konqresə və məhkəmələrə məhəl qoymayanda o, Amerika üçün mübarizə aparmır. O, onu məhv edir və demokratiyamızı təhlükə altına qoyur”.Konqresmen qeyd edib ki, o, Trampı müxtəlif ciddi qanun pozuntularında ittiham edərək, 7 impiçment maddəsi qaldırıb. Xüsusilə, siyasətçi prezidenti Konqresdən icazə almadan Hökumətin Səmərəliliyi Departamenti (DOGE) vasitəsilə bəzi dövlət departamentləri üçün maliyyəni qanunsuz olaraq kəsməkdə ittiham edib. Thanedar hesab edir ki, Trampın aqressiv tarif siyasəti impiçment üçün başqa səbəbdir. Görünməmiş tariflər beynəlxalq iqtisadiyyata mənfi təsir göstərib. Konqresmen Trampın jurnalistlərə təzyiqi, söz azadlığına zəmanət verən ABŞ Konstitusiyasına Birinci Düzəlişin pozulması, rüşvətxorluq və məhkəmə sisteminin işinə müdaxilə, habelə vətəndaşların şəxsi məlumatlarının qanunsuz toplanması barədə də danışıb.”Maddə 7 hakimiyyətdən tirancasına sui-istifadədir. Tramp qeyri-məhdud səlahiyyət toplamağa və prezidentliyin konstitusiya sərhədlərini məhv etməyə cəhd edir. Bu ölkədə prezidentlər kral deyil. Bu, sadəcə olaraq, cinayət deyil, impiçment edilə bilməyən bir cinayətdir”, - deyə Thanedar bildirib. Reuters/Ipsos sorğusunun nəticələrinə görə, Trampın bəyənmə reytinqi Ağ Evə qayıtdıqdan sonra ən aşağı səviyyəyə düşüb.

ABŞ Prezidenti Mədəni İnqilab Komissarı kimi 2024-cü il noyabrın 5-də ABŞ-da keçirilən prezident seçkilərinin nəticələrinə uyğun olaraq 2025-ci il yanvarın 20-də Donald Trampın 47-ci Amerika prezidenti kimi and içib və vəzifəsinin icrasına başlayıb. Zahirən bu, prezidentin 130-dan çox fərmanı, 40 memorandum və imzaladığı 35 bəyannamə formasını alıb. Ağ Evdən çıxan sənədləri, Trampın çoxsaylı çıxışları və bəyanatları ilə birlikdə vahid məxrəcə götürsək, bu, mədəni inqilab kimi, ABŞ-ın indiki zamana qədər olan tarixi şəxsiyyətinin əsasında duran əsas dəyərlər sistemini müəyyən edən 1765-1791-ci illər Amerika İnqilabının ”ikinci nəşrinə” cəhd kimi xarakterizə edilə bilər.

## Mühafizəkarların vədi

Trampın ikinci dəfə hakimiyyətə gəlməsi analitik baxımdan kifayət qədər yaxşı hazırlanmışdı. Sağçı mühafizəkar ”İrs” fondu inqilabın əsas ideoloji ”qərargahı” kimi çıxış edirdi. 2023-cü ilin aprelində o, 922 səhifəlik böyük bir ”kərpic” nəşr edir: ”Liderlik üçün Mandat: Mühafizəkar vəd”. Bu işi ABŞ dərin dövlətinin parçalanması planı kimi təyin etmək olar. Federal nazirlik və idarələrin strukturunda və onların idarə edilməsində ”islahatlar” üzrə analitik tövsiyələrin diqqətlə öyrənilməsi göstərir ki, onlar üç aparıcı federal strukturun funksiyalarının transformasiyasına əsaslanır: 1. Dövlət Departamenti və Beynəlxalq İnkişaf Agentliyi; 2. Təhsil Nazirliyi və 3. Federal Ehtiyat Sistemi (FRS). İrs Fondunun analitik tövsiyələrinin ortaya çıxan ”quru qalığı” ilk növbədə dəyər məzmununa malik idi.Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişaf Agentliyinin (USAID) faktiki ləğvi, Dövlət Departamentinin büdcəsinin azaldılması və onun daxilində başlanmış kadr təmizləmələri ABŞ-ın daha çox liberal nizam-intizamın gücləndirilməsinə əsaslanan siyasi institutlarını dəstəkləmək niyyətində olmadığı barədə ABŞ-ın ”imici və bənzərində” yaradılmış demokratiya ”mesajı” dünyaya çatdırmaq məqsədi daşıyır. Trampın Təhsil Departamentinin ləğvinin başlanması və onun funksiyalarının, xüsusən də Amerika ali təhsil sisteminin və aparıcı Amerika universitetlərinin federal maliyyələşdirilməsi və lisenziyalaşdırılması baxımından dövlət səviyyəsinə verilməsi haqqında prezident fərmanı mahiyyətcə 20-ci əsrin ikinci yarısında Amerika universitetlərində oynamağa başlayan siyasi demokratik sistemin ən mühüm ”dəstək strukturunun” rolunu və əhəmiyyətini kəskin şəkildə zəiflətməyə yönəlib. Trampın sərəncamına əsasən, 130 min Amerika dövlət və özəl məktəblərində 50 milyon tələbənin təhsil alması üçün maliyyə dəstəyi, eləcə də Amerika universitet və kolleclərində 13 milyon tələbəyə verilən dəstək qarşıdakı 10 il ərzində faktiki olaraq dayandırılmalıdır. Sol-liberal jurnal ”The Nation” öz şərhində qeyd edir ki, 1979-cu ildə yaradılmış Təhsil Nazirliyi ”mədəniyyət müharibəsinin sağçı teologiyasında əsas dayaq nöqtəsini” təmsil edir. The Nation belə nəticəyə gəlir: ”Buna görə də departamentin əsas funksiyalarının əksəriyyətinin ləğvi Tramp administrasiyasının dərin dövlətə hücumunun mərkəzi elementidir: Dövlət tərəfindən maliyyələşdirilən təhsil konsepsiyası həmişə müasir mühafizəkar hərəkat üçün lənət olub”.Və nəhayət, Heritage Fondunun Federal Ehtiyat Sistemi ilə bağlı mürəkkəb tövsiyəsi bu Amerika mərkəzi bankını mahiyyətcə ləğv etmək və 19-cu əsrdə mövcud olan ABŞ bank sisteminin təşkilinə qayıtmaq təklifi ilə nəticələndi ki, bu da ölkənin o vaxtkı ən zəngin bank evləri - Morgans, the Rockefellers, The Rockefells tərəfindən idarə olunması faktına əsaslanırdı. Bununla belə, aprel ayında FED sədri Cerom Paueli tez bir zamanda işdən çıxarmaqla hədələyən Tramp bu strukturu ləğv etmək deyil, ”Tramp etmək” niyyətini açıq şəkildə ifadə edib. Yəni onun mətbəəsini Ağ Evin nəzarəti altına vermək niyyətində idi. Bu baxımdan Amerikanın ən varlı adamlarının aparıcı federal departament və agentliklərin - maliyyə, ticarət, daxili işlər, Milli Aeronavtika və Kosmik Tədqiqatlar Administrasiyasının (NASA) rəhbərləri vəzifələrinə, o cümlədən onların ən zəngini, Hökumətin Effektivliyi Departamentinə (DOGE) rəhbərlik edən İlon Maskın təyin edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Bu insanların o qədər də ictimailəşdirilməmiş, həm də xüsusi olaraq gizlədilməyən ideologiyası 18-ci əsrin son rübündə yaradılmış Amerika siyasi sisteminin sürətlənmiş elmi-texniki tərəqqi ilə bir araya sığmaması ideyasına əsaslanır. Onlar hesab edirlər ki, feodal münasibətləri bir vaxtlar iqtisadiyyatın sənaye əsasına keçməsində güclü maneə rolunu oynadığı kimi, müasir Amerikada da liberal demokratiya məhsuldar qüvvələrin inkişafı üçün güclü tormoz oldu.

## ”Qeyri-amerikalı” dəyərlərlə mübarizə

ABŞ kiber-texnokratlarının yeni nəsli dərindən əmindir ki, Amerika demokratiyası klassik formada ”uzun müddət işləmir, çünki xalqın sözdə gücü yaxşı idarəçiliyə gətirib çıxarmır”. Amerika ictimai həyatının demokratikləşməsinin apoteozu, Cozef Bayden administrasiyası tərəfindən həm dövlət, həm də özəl sektorda DEI sisteminin - ”müxtəliflik, bərabərlik və inklüzivlik” - demək olar ki, məcburi şəkildə tətbiqi idi. Bu sistem, ABŞ-ın hazırkı vitse-prezidenti J.D.Vensin ideoloji mentoru Mencius Moldbug-un qeyd etdiyi kimi, ”sağlam düşüncənin inkarına, indulgensiyanı cinayətin dərmanı kimi təbliğ etməyə, hərbi təcavüzün təzahürü kimi qorxaqlığa əsaslanaraq, Amerika vətəndaşlarının gənc nəsillərinin ictimailəşməsinin dominant formasını demək olar ki, Birləşmiş Ştatlarda institutlaşdırıb.Məhz bu ”qeyri-amerikalı” dəyərlər sisteminə qarşı mübarizə Trampın bütün fərman və memorandumlarına sözün əsl mənasında nüfuz edir. Buraya aprelin 15-də imzaladığı ”Federal Satınalmalarda Sağlam Düşüncənin Bərpası” haqqında Amerika müqavilə sisteminə, xüsusən də federal hökumətin ən son silah sistemlərini satın aldığı ”icra sərəncamı” daxildir. Trampın yaratdığı seysmik təkanların ilk hədəfi Vaşinqton və Amerika paytaxtında möhkəmlənmiş federal bürokratiya oldu. Maskın zəncir mişarı dərin dövlətin yaxşı möhkəmləndirilmiş sinekürlərini açmaq üçün bir neştər rolunu oynadı. DOGE sayəsində əvvəllər məlum olmayan ”Amerika qitəsi” ”ortaya çıxdı”. Federal hökumətin Amerika iqtisadiyyatının aparıcı sektoru kimi qurulmasının uzun onillikləri ərzində onun əsas ”istehsal funksiyası” istehsal olunan mal və xidmətlərin korrupsiya ilə yenidən bölüşdürülməsinə çevrildi.Saxtakarlığın əsas sahəsi ən böyük sosial proqramlar - pensiya və tibbi xidmətlər, əhalinin aztəminatlı qruplarına yardım idi. Məlum olub ki, Sosial Təminat Administrasiyasının məlumat bazalarında 100-159 (!) arasında olan 20,7 milyon amerikalı haqqında ”şəxsi məlumatlar” var. Baxmayaraq ki, Siyahıyaalma Bürosunun məlumatına görə, Amerikada təxminən 100 yaşı olan 101 mindən çox insan yoxdur. Rəhbərlik bu məlumatların təqaüdlə heç bir əlaqəsi olmadığını və ödənişli müavinətlərlə heç bir əlaqəsi olmadığını tez bir zamanda bəyan etdi. Hətta Ofisin öz audit məlumatlarına görə, 8 il ərzində - 2015-ci ildən 2022-ci maliyyə ilinə qədər - 72 milyard dollar qanunsuz olaraq ödənilib. Yəni hər il təxminən 10 milyard dollar.

## Siyasi möcüzə

Dini müharibələrin öz uğur və uğursuzluq miqyası var ki, bu da rasional hesablamaların və sosioloji ictimai rəy sorğularının məntiqinə tabe olmur. Bu, daha çox Trampın nə dərəcədə ”Taleyin sevimlisi” və ”Tanrının seçilmişi” olmasının bir törəməsidir. Onun 2025-ci ildə Ağ Evə qayıtması, həqiqətən də, müasir ABŞ tarixində görünməmiş ”siyasi möcüzə” idi. Ötən gün ABŞ İqtisadi Təhlil Bürosu, sanki istehza ilə, iş adamı-prezidentə ilk ”uğursuzluğu” verdi: birinci rübün nəticələrinə görə, Amerika iqtisadiyyatı kifayət qədər dərin bir mənfi vəziyyətə düşüb. Tənəzzül və hətta depressiya xəyalı Amerikanın üzərində Hamletin atasının kölgəsi kimi dolaşır. Dövriyyə nümunələri ilə idarə olunan, 2025-ci ildə Amerika iqtisadiyyatının mümkün tənəzzülü, Gallup-a görə, aprel ayında rekord sayda Amerika ev təsərrüfatlarına gətirib çıxardı - 53% - onların dərhal maliyyə dünyagörüşü ilə bağlı pessimist. Bu, 2001-ci ildən bəri bu göstəricinin ən yüksək qiymətidir!Amerikalı analitiklər tez bir zamanda qeyd etdilər ki, Trampın hazırkı tarif müharibəsi 1930-cu ilin yayındakı vəziyyəti çox xatırladır. O zaman ABŞ-da Smoot-Hawley Aktı qəbul edildi və bu, artıq başlamış iqtisadi tənəzzülün Böyük Depressiyaya ”rəvan” keçidini sürətləndirdi. Həmin dövrdə iqtisadi siyasətdə əsas rolu dövrün ən varlı adamlarından biri, Herbert Huverin Respublika administrasiyasının bir növ Maskası olan Xəzinədarlıq katibi Endryu Mellon oynayırdı. Mellon hesab edirdi ki, iqtisadi böhran Amerika iqtisadiyyatının rəqabət qabiliyyətini artırmaq üçün ən yaxşı ”dərman”dır. Deyirlər ki, bunun sayəsində bütün səmərəsiz müəssisələr ”süpürüləcək” və məhsuldar olmayan işçilər işdən çıxarılacaq.

## Tramp yeni kanala keçir

Prezident Donald Tramp ABŞ hərbi və ticarət gəmilərinin Süveyş kanalından pulsuz keçməsini tələb edib. Qahirə hələ ki, Amerika gəmilərinə bu cür güzəştlərin verilməsinə razılıq verməyib. Amma başqa bir strateji əhəmiyyətli marşrut - Panama kanalı ətrafındakı vəziyyət onu deməyə əsas verir ki, Misir güzəştə getməkdən imtina edərsə, ona təzyiq göstərilə bilər.Donald Tramp aprelin 27-də Truth sosial şəbəkəsində ABŞ-ın ticarət və hərbi donanmasının Misirin nəzarətində olan Süveyş kanalından rüsumsuz keçidinə icazə verilməsinin zəruriliyini açıqlayıb. Və eyni zamanda o, Atlantik və Sakit Okeanları birləşdirən Panama kanalından keçərkən Amerika gəmiləri üçün gömrük maneələrinin olmaması ilə bağlı artıq səslənmiş tezisi xatırladıb. Amerika lideri qeyd edib ki, ”Amerika Birləşmiş Ştatları olmadan bu kanallar mövcud olmazdı”. Tramp bildirib ki, dövlət katibi Marko Rubioya artıq ”bu vəziyyətlə dərhal məşğul olmaq” tapşırılıb.Yanvarın 20-də vəzifəyə başlayandan bəri Tramp ABŞ-ın Panama kanalına maneəsiz çıxışının səsli müdafiəçisi olub, hətta lazım gələrsə, bu məqsədə çatmaq üçün Pentaqona hərbi ssenarilər hazırlamağı əmr edib. Amerika liderinin əsas motivi Çinin dəniz nəqliyyatı sektorunda dominantlığına qarşı mübarizə olub ki, bu da Ağ Evin fikrincə, Amerikanın maraqlarına xələl gətirir. Nəticədə, martın 4-də Honq-Konq şirkəti CK Hutchison Panama kanalının hər iki tərəfindəki limanlardakı payını amerikalı investorlara satmağa razılaşıb.Trampın Süveyş kanalı ilə bağlı bəyanatlarına gəlincə, onlar da ”Çin” kontekstində səslənir. Çin və Misir bu ayın ortalarında ”Sivilizasiya Qartalları 2025” adlı genişmiqyaslı hava qüvvələri təlimlərinə başlayıb. Bu, iki ölkə arasında havada ilk birgə hərbi manevrlərdir və Misir silahlı qüvvələrinin nümayəndələrinin qeyd etdiyi kimi, ”təcrübə mübadiləsi və ixtisasların artırılması” məqsədilə həyata keçirilir.

**V.VƏLİYEV**

# “AZƏR TOXUM” MMC-nin 2024 cü il üzrə audit olunmuş Maliyyə hesabatlarının dərci

DELTA AUDIT

## Müstəqil Auditorun Hesabatı

"AZƏR TOXUM"
Məhdud Məsuliyyətli Cəmiyyətinin
Rəhbərliyinə

**Rəy**

Biz **"AZƏR TOXUM" MMC-nin** (bundan sonra – Cəmiyyət) 31 dekabr 2024-cü il tarixinə olan maliyyə vəziyyəti haqqında hesabatdan, mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

**Bizim fikrimizcə, “Rəy üçün əsaslar” bölməsində əks etdirilmiş məsələlərin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları 31.12.2024-cü il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmçinin həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq bütün əməhiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks olunmuşdur.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Biz Azarbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik.

- Tətbiq olunan uçot siyasətinin, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların müvafiqliyini qiymətləndiririk.

- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin müvafiqliyinə və Cəmiyyətin fəaliyyətin fasiləsizliyi prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Bizim yekun rəyimizdə ciddi qeyri-müəyyənlik mövcuddur deyilərsə, auditor hesabatımızda maliyyə hesabatlarında əlaqədar məlumatlara diqqət çəkməyimiz, yaxud da bu cür məlumatlar muvafiq olmazsa, rəyimizi dəyişdirməyimiz tələb olunur. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Cəmiyyətin işində fəaliyyətin fasiləsizliyi prinsipini poza bilər.

- Maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib etdirmədiyini təhlil edirik.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlər ilə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**29 aprel 2025-ci il**

**“DELTA AUDİT” MMC-nin direktoru,**
**Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü,**
**Auditor:**

**Səmədov Elnur Əlirza oğlu**

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tələblərinə uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi əks etdirən auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zamanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər saxtakarlıq, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.

- Cəmiyyətin daxili nəzarət sisteminin səmərəliliyi ilə bağlı rəy bildirmək məqsədi daşımayan, yalnız mövcud şərtlərdə müvafiq olacaq audit prosedurlarının hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi haqqında məlumat əldə edirik.

"AZƏR TOXUM" MMC
31 dekabr 2024 tarixində bitmiş il üzrə *(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

## Maliyyə vəziyyəti haqqında hesabat

| AKTİVLƏR | Qeyd | 2 024 | 2 023 |
|---|---|---|---|
| **Uzunmüddtli aktivlər** | | | |
| Torpaq, tikili, avadanlıqlar | 5 | 7 757 961 | 8 671 078 |
| Qeyri-maddi aktivlər | 6 | 7 740 | 10 980 |
| Torpaq, tikili, avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması | 7 | - | - |
| Uzunmüddətli maliyyə qoyuluşu | 8 | - | - |
| Təxirə salınmış vergi aktivləri | 17 | 556 469 | 231 730 |
| Sair uzunmüddətli aktivlər | 9 | 6 366 048 | 9 187 917 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **14 688 218** | **18 101 706** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 10 | 1 799 370 | 595 669 |
| Ticari debitor borclar | 11 | 1 077 088 | 1 669 533 |
| Sair qısamüddətli aktivlər | 12 | 2 808 714 | 1 158 652 |
| Vergi və sair məcburi ödənişlər üzrə artıq ödəmələr | 12 | - | - |
| Pul vəsaitləri və onun ekvialentləri | 13 | 97 237 | 461 080 |
| **Cəmi qısamüddətli aktivlər** | | **5 782 409** | **3 884 934** |
| **Cəmi aktivlər** | | **20 470 626** | **21 986 639** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 14a | 15 310 840 | 15 310 840 |
| Kapital ehtiyatları | 14b | 3 589 160 | 3 589 160 |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | 14c | (1 298 953) | (926 921) |
| Ötən illərin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri) | 14c | (926 921) | - |
| **Cəmi kapital** | | **16 674 125** | **17 973 079** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli faiz yaradan öhdəliklər | 15 | - | - |
| Uzunmüddətli alınmış borclar | 16 | - | - |
| Təxirə salınmış vergi öhdəlikləri | 17 | - | - |
| Uzunmüddətli hesablanmış öhdəliklər və ehtiyatlar | 18 | - | - |
| Digər uzunmüddətli öhdəliklər | 19 | 864 465 | 864 465 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **864 465** | **864 465** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | 20 | 117 055 | 288 980 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 21 | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 22 | 18 068 | 7 392 |
| Qısamüddətli alınmış borclar | 23 | - | - |
| Sair qısamüddətli öhdəliklər | 24 | 2 796 914 | 2 852 724 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **2 932 036** | **3 149 096** |
| **Cəmi öhdəliklər** | | **3 796 501** | **4 013 561** |
| **Cəmi kapital və öhdəliklər** | | **20 470 626** | **21 986 639** |

Direktor: Hamidov Fərid Rafiq oğlu
"AZƏR TOXUM" MMC

Baş mühasib:

*"15" aprel 2025-ci il*

7

12-30-cu səhifələrdə göstərilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

Ardı Səh. 11

# “AZƏR TOXUM” MMC-nin 2024 cü il üzrə audit olunmuş Maliyyə hesabatlarının dərci

Əvvəli Səh. 12

"AZƏR TOXUM" MMC
31 dekabr 2024 tarixində bitmiş il üzrə *(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

## Mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabat

| | Qeyd | 2024 | 2023 |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 25 | 6 525 769 | 2 495 438 |
| Satışın maya dəyəri | 25 | (5 866 003) | (2 123 216) |
| **Məcmu mənfəət** | | **659 767** | **372 221** |
| Ümumi və inzibati xərclər | 27 | (1 425 633) | (750 450) |
| **Faiz, vergi və amortizasiyadan əvvəlki mənfəət** | | **(765 866)** | **(378 228)** |
| Torpaq, tikili və avadanlıqlar üzrə amortizasiya | 5 | (1 030 139) | (1 213 771) |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | 6 | (3 240) | (4 790) |
| **Faiz, vergidən əvvəlki mənfəət (Əməliyyat mənfəəti)** | | **(1 799 244)** | **(1 596 790)** |
| Digər qeyri-əməliyyat gəliri və ya (xərci) | 26 | 175 553 | 438 138 |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | | **(1 623 692)** | **(1 158 652)** |
| İl üzrə mənfəət vergisi faydası və ya (xərci) | 17 | 324 738 | 231 730 |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | | **(1 298 953)** | **(926 921)** |

Direktor: Həmidov Fərid Rafiq oğlu
"AZƏR TOXUM" MMC

Baş mühasib:

*"15" aprel 2025-ci il*

AZƏRBAYCAN RESPUBLİKASI "AZƏR TOXUM" MMC AZƏRTOXUM MMC LLC AZERBAIJAN R

## Kapitalda dəyişikliklər haqqında hesabat

| *Azərbaycan Manatı ilə / In Azerbaijani Manats* | **Nizamnamə Kapitalı** *Share capital* | **Kapital ehtiyatları** *Reserves* | **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** *Retained earnings or accumulated loss* | **Cəmi xalis aktivlər və ya kapital /** *TOTAL EQUITY or Net Assets* |
|---|---|---|---|---|
| **01.01.2023-cü il tarixinə balans** | **15 310 840** | **3 589 160** | **-** | **18 900 000** |
| Uçot siyasətində dəyişikliklərlə bağlı düzəlişlər | - | - | - | - |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | - | - | (926 921) | (926 921) |
| Mənfəət və zərər haqqında hesabatda tanınmayan gəlir və xərclər | - | - | - | - |
| ***31.12.2023-cü il tarixinə kapitalın istifadəsindən əvvəl balans*** | *15 310 840* | *3 589 160* | *(926 921)* | *17 973 079* |
| Kapitalın maddələri arasında köçürmələr | - | - | - | - |
| Kapitalın istifadəsi (gerigötürmələr) | - | - | - | - |
| Kapital qoyuluşu | - | - | - | - |
| **31.12.2023-cü il tarixinə balans** | **15 310 840** | **3 589 160** | **(926 921)** | **17 973 079** |
| Uçot siyasətində dəyişikliklərlə bağlı düzəlişlər | - | - | - | - |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | - | - | (1 298 953) | (1 298 953) |
| Mənfəət və zərər haqqında hesabatda tanınmayan gəlir və xərclər | - | - | - | - |
| ***31.12.2024-cü il tarixinə kapitalın istifadəsindən əvvəl balans*** | *15 310 840* | *3 589 160* | *(2 225 875)* | *16 674 125* |
| Kapitalın maddələri arasında köçürmələr | - | - | - | - |
| Kapitalın istifadəsi (gerigötürmələr) | - | - | - | - |
| Kapital qoyuluşu | - | - | - | - |
| **31.12.2024-cü il tarixinə balans** | **15 310 840** | **3 589 160** | **(2 225 875)** | **16 674 125** |
| **2024-cü il üçün kapitalda dəyişikliklər** | **-** | **-** | **(1 298 953)** | **(1 298 953)** |

Direktor: Həmidov Fərid Rafiq oğlu
"AZƏR TOXUM" MMC

Baş mühasib:

*"15" aprel 2025-ci il*

AZƏRBAYCAN RESPUBLİKASI "AZƏR TOXUM" AZƏRTOXUM MMC LLC AZERBAIJAN REPUBLIC

"AZƏR TOXUM" MMC
31 dekabr 2024 tarixində bitmiş il üzrə *(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat *(dolayı metodla)*

| | 2 024 | 2 023 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Vergiqoymadan əvvəl mənfəət / (zərər) | (1 623 692) | (1 158 652) |
| *Düzəlişlər:* | | |
| Gəlir və xərclərin qeyri-pul maddələri, o cümlədən | | |
| Torpaq, tikili və avadanlıqlar üzrə amortizasiya | 1 034 870 | 1 213 771 |
| Qeyri-maddi aktivlər üzrə amortizasiya xərcləri | 3 240 | 4 790 |
| Əsas vəsaitin silinməsi üzrə xərclər | - | - |
| Əsas vəsaitlərin təqdim edilməsindən (mənfəət) və ya zərər | - | (14 336) |
| İnvestisiya gəlirləri | - | - |
| Faiz xərcləri | - | - |
| Xarici valyuta məzənnə fərqindən (gəlir) və ya zərər | - | - |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərin hərəkəti** | **(585 581)** | **45 574** |
| Material ehtiyatlarının (artması) və ya azalması | (1 203 702) | (595 669) |
| Sair qısamüddətli aktivlərdə (artma) və ya azalma | (1 650 062) | (1 158 652) |
| Ticari debitor borcların (artması) və ya azalması | 592 445 | (1 334 044) |
| Vergi və sair məcburi ödənişlər üzrə artıq ödəmədə (artma) və ya azalma | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklərdə artma və ya (azalma) | | |
| Ticari kreditor borcların artması və ya (azalması) | (171 925) | 288 980 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklərin artması və ya (azalması) | - | - |
| Qısamüddətli alınmış borcların artması və ya (azalması) | - | - |
| Sair qısamüddətli öhdəliklərin artması və ya (azalması) | (55 810) | 2 852 724 |
| **Dövriyyə kapitalında dəyişiklik** | (2 489 053) | 53 339 |
| Ödənilmiş faiz xərcləri | - | - |
| Ödənilmiş mənfəət (gəlir) vergisi | 10 675 | 7 392 |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | (3 063 959) | 106 305 |

| | | |
|---|---|---|
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Torpaq, tikili və avadanlıqların əldə edilməsi | (121 754) | (264 953) |
| Qeyri-maddi aktivlərin əldə edilməsi | - | (11 271) |
| Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması | - | - |
| İnvestisiyaların əldə edilməsi | - | - |
| Asılı müəssisələrdən əldə olunmuş dividend | - | - |
| Uzunmüddətli maliyyə qoyuluşu üzrə (artma) və ya azalma | - | - |
| Sair uzunmüddətli aktivlərdə (artma) və ya azalma | 2 821 870 | 535 142 |
| Əsas vəsaitlərin satışından əldə edilən gəlirlər | - | 87 000 |
| Qeyri-maddi aktivlərin satışından əldə edilən gəlirlər | - | - |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | **2 700 116** | **345 918** |

"AZƏR TOXUM" MMC
31 dekabr 2024 tarixində bitmiş il üzrə *(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

| | | |
|---|---|---|
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin hərətəki** | | |
| Uzunmüddətli faiz yaradan öhdəliklərin artması və ya (azalması) | - | - |
| Əlaqəli şəxslərdən alacaqlar üzrə (artma) və ya azalma | - | - |
| Uzun müddətli alınmış borcların artması və ya (azalması) | - | - |
| Uzunmüddətli akkruallar və ehtiyatların artması və ya (azalması) | - | - |
| Digər uzunmüddətli öhdəliklərin artması və ya (azalması) | - | - |
| Nizamnamə kapitalının artması və ya (azalması) | - | - |
| Kapital ehtiyatlarının artması və ya (azalması) | - | - |
| Dividend üzrə ödənişlər | - | - |
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti** | - | - |
| **Pul vəsaitləri və onların ekvivalentinin xalis hərəkəti** | **(363 844)** | **452 224** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin əvvəlinə qalığı** | **461 080** | **8 857** |
| **İl ərzində pul vəsaitlərinin artması (azalması)** | **(363 844)** | **452 224** |
| **Valyuta məzənnəsinin dəyişməsinin pul vəsaitlərinə və onların ekvivalentlərinə təsiri** | - | - |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin ilin sonuna qalığı** | **97 237** | **461 080** |

Direktor: Həmidov Fərid Rafiq oğlu
"AZƏR TOXUM" MMC

Baş mühasib:

*"15" aprel 2025-ci il*

# “Azər Yem Sənaye” MMC-nin 2024 cü il üzrə audit olunmuş Maliyyə hesabatlarının dərci

DELTA AUDIT

## Müstəqil Auditorun Hesabatı

"AZƏR YEM SƏNAYE"
Məhdud Məsuliyyətli Cəmiyyətinin
Rəhbərliyinə

**Rəy**

Biz **"AZƏR YEM SƏNAYE" MMC-nin** (bundan sonra – Cəmiyyət) 31 dekabr 2024-cü il tarixinə olan maliyyə vəziyyəti haqqında hesabatdan, mənfəət və zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

**Bizim fikrimizcə, "Rəy üçün əsaslar" bölməsində əks etdirilmiş məsələlərin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları 31.12.2024-cü il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmçinin həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq bütün əməhiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.**

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar çərçivəsində nəzərdə tutulan məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks olunmuşdur.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Biz Azarbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik.

- Tətbiq olunan uçot siyasətinin, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların müvafiqliyini qiymətləndiririk.

- Rəhbərliyin uçotun davamlılıq prinsipindən istifadəsinin müvafiqliyinə və Cəmiyyətin fəaliyyətin fasiləsizliyi prinsipini davam etdirmə imkanına dair ciddi şübhələr yarada biləcək hadisə və ya şərtlərlə əlaqədar ciddi qeyri-müəyyənliyin olub olmaması ilə bağlı əldə edilmiş dəlillər əsasında yekun rəy bildiririk. Bizim yekun rəyimizdə ciddi qeyri-müəyyənlik mövcuddur deyilərsə, auditor hesabatımızda maliyyə hesabatlarında əlaqədar məlumatlara diqqət çəkməyimiz, yaxud də bu cur məlumatlar müvafiq olmazsa, rəyimizi dəyişdirməyimiz tələb olunur. Bizim yekun rəylərimiz auditor hesabatımızın hazırlanma tarixinədək əldə edilmiş audit dəlillərinə əsaslanır. Bununla belə, gələcək hadisə və şərtlər Cəmiyyətin işində fəaliyyətin fasiləsizliyi prinsipini poza bilər.

- Maliyyə hesabatlarının, o cümlədən açıqlanan məlumatların ümumi təqdimatı, strukturu və məzmunu, həmçinin hesabatların obyektiv təqdimatının əsasını təşkil edən başlıca əqd və hadisələri əks etdirib etdirmədiyini təhlil edirik.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlər ilə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**29 aprel 2025-ci il**

**"DELTA AUDİT" MMC-nin direktoru,**
**Azərbaycan Respublikasının Auditorlar Palatasının üzvü,**
**Auditor:**

**Səmədov Elnur Əlirza oğlu**

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tələblərinə uyğun olaraq hazırlanmasına, obyektiv şəkildə təqdim edilməsinə, eləcə də, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi əks etdirən auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zamanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər saxtakarlıq, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartları əsasında aparılan audit yoxlamasının bir hissəsi kimi biz audit prosesində peşəkar mühakimə və peşəkar skeptisizm prinsipi tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtalaşdırma və ya səhvlərdən irəli gələn ciddi təhrif risklərini aşkarlayır və təhlil edir, bu risklərə cavab verən audit prosedurları hazırlayır və icra edir və rəyimiz üçün əsas təşkil edəcək kafi və müvafiq dəlil toplayırıq. Saxtakarlıqdan irəli gələn ciddi təhrifləri aşkarlamama riski səhvlərdən qaynaqlanan riskdən daha yüksəkdir, belə ki saxtakarlıq əlbir olma, saxtalaşdırma, məqsədli buraxma, təhrif və ya daxili nəzarətin yetərsizliyi kimi hallarla əlaqəli olur.

- Cəmiyyətin daxili nəzarət sisteminin səmərəliliyi ilə bağlı rəy bildirmək məqsədi daşımayan, yalnız mövcud şərtlərdə müvafiq olacaq audit prosedurlarının hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi haqqında məlumat əldə edirik.

"AZƏR YEM SƏNAYE" MMC
31 dekabr 2024 tarixində bitmiş il üzrə

*(Azərbaycan manatı ilə ifadə olunmuşdur)*

## Maliyyə vəziyyəti haqqında hesabat

| AKTİVLƏR | Qeyd | 2 024 | 2 023 |
|---|---|---|---|
| **Uzunmüddtli aktivlər** | | | |
| Torpaq, tikili, avadanlıqlar | 5 | 1 664 231 | 1 831 028 |
| Qeyri-maddi aktivlər | 6 | 2 871 | 3 230 |
| Torpaq, tikili, avadanlıqlarla bağlı məsrəflərin kapitallaşması | 7 | - | - |
| Uzunmüddətli maliyyə qoyuluşu | 8 | - | - |
| Təxirə salınmış vergi aktivləri | 17 | - | - |
| Sair uzunmüddətli aktivlər | 9 | 833 521 | 530 203 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **2 500 623** | **2 364 461** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 10 | 1 293 776 | 1 479 977 |
| Ticari debitor borclar | 11 | 515 533 | 1 026 462 |
| Sair qısamüddətli aktivlər | 12 | - | 23 888 |
| Vergi və sair məcburi ödənişlər üzrə artıq ödəmələr | 12 | - | - |
| Pul vəsaitləri və onun ekvialentləri | 13 | 219 680 | 45 034 |
| **Cəmi qısamüddətli aktivlər** | | **2 028 989** | **2 575 361** |
| **Cəmi aktivlər** | | **4 529 613** | **4 939 822** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| **Kapital** | | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 14a | 2 291 952 | 2 291 952 |
| Kapital ehtiyatları | 14b | - | - |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | 14c | 164 503 | 56 444 |
| Ötən illərin bölüşdürülməmiş mənfəəti (ödənilməmiş zərəri) | 14c | 52 071 | - |
| **Cəmi kapital** | | **2 508 526** | **2 348 396** |
| **Öhdəliklər** | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Uzunmüddətli faiz yaradan öhdəliklər | 15 | - | - |
| Uzunmüddətli alınmış borclar | 16 | - | 30 000 |
| Təxirə salınmış vergi öhdəlikləri | 17 | - | - |
| Uzunmüddətli hesablanmış öhdəliklər və ehtiyatlar | 18 | - | - |
| Digər uzunmüddətli öhdəliklər | 19 | - | - |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **-** | **30 000** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | 20 | 1 641 376 | 2 403 756 |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 21 | - | - |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 22 | 31 313 | 56 061 |
| Qısamüddətli alınmış borclar | 23 | - | - |
| Sair qısamüddətli öhdəliklər | 24 | 348 398 | 101 609 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **2 021 087** | **2 561 426** |
| **Cəmi öhdəliklər** | | **2 021 087** | **2 591 426** |
| **Cəmi kapital və öhdəliklər** | | **4 529 613** | **4 939 822** |

Direktor Rəhimov Qoca ... oğlu
"AZƏR YEM SƏNAYE" MMC

Baş mühasib

M.Y.

*"15" aprel 2025-ci il*

7

12-30-cu səhifələrdə göstərilən qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

Ardı Səh. 14

ELMİ ARAŞDIRMA

(II HİSSƏ)

# Dünyanın xilası üçün yeni sistemə keçid vaxtı çatdı: Real alternativ nədir?

Yeganə alternativ- fundamental həll yolu- problemi bütöv şəkildə qavramaq və nəticələrlə uğraşmaq əvəzinə, səbəbləri aradan qaldırmaq üçün sistemin köklü dəyişməsidir. Kapitalizm isə fundamental dəyişikliyə gedə bilməz, onun artıq təklif edəcəyi heç nə qalmayıb və ona görə də qlobal böhranı lokal tədbirlərlə həll edə bilməz. Çünki hər bir sosial-iqtisadi sistemin özünü saxlamaq üçün inkişaf mexanizmləri olmalıdır. Kapitalist sistemində bu, "yenidən istehsalın genişlənməsidir".

Kapitalizm yaşamaq üçün daim genişlənməlidir. Bunun üçün hər il azı 3% artım tələbini təmin edəcək kapital axını yaratmalıdır. Çünki ən nüfuzlu sistem iqtisadçıları kapitalın yığılmasının fasiləsizliyinin kəsilməsinin kapitalın dəyər itirməsinə səbəb ola biləcəyi, bunun da böhrana gətirəcəyini etiraf edirlər. Bir sözlə kapitalizmin istismar, talama və kapitaltoplama çılğınlığı o qədər irəli gedib və o həddə çatıb ki, artıq nə geriyə yol var, nə də irəli.






Beləliklə, ekoloji böhran məhz bu məqamda meydana çıxır ki, daim artan istehsal həcmi, artım olmadan sistemi saxlamaq mümkün olmadığına görə resurslara təzyiqi maksimuma çatdırıb və mövcud təbiətin kritik hədlərini artıq keçib.

Qlobal miqyasda baş verən kapitalist istehsalı sayəsində bu sistem dünyanı sudan, havadan, torpaqdan, təbiətdən məhrum etməyə başlamışdır. Sənayeləşmə ilə ayrılan həddindən artıq karbon qazının və digər zərrəli maddələrin təsiri nəticəsində son 100 ildə atmosferdə ozon təbəqəsi nazikləşmiş, Antarktida və Arktika bölgəsində havanın orta temperaturu 5 dərəcə yüksəlmişdir. Əsrin sonunadək dünyada havanın orta temperaturunun 1,5-5 dərəcə artacağı təxmin edilir. Qlobal istiləşmə nəticəsində artıq iri buzlaqlar sürətlə əriməyə başlayıb, güclü yağışlar, daşqınlar, böyük tayfunlar, böyük miqdarda eroziya, sahilyanı əraziləri su basması kimi təbii fəlakətlər artıb.

Qlobal istiləşmə bütün dünyada bitki və heyvan növlərinə də mənfi təsir göstərmiş və gələcək qlobal qida böhranlarına yol açmağa başlamışdır. Son 100 ildə dünya meşələrinin 50 faizi məhv edilmiş, biomüxtəliflik 40 faiz azalmış, torpaqlar, su mənbələri və hava hədsiz çirklənməyə məruz qoyulmuşdur. Yeraltı resurslar ağlagəlməz vəhşiliklə çıxarılaracaq istismar edilmişdir və bir çoxu tükənmək üzrədir. Ekoloji problemlər təkcə təbiəti məhv etmir, insanları da bəlaya düçar edir- bəzi xəstəliklərin, xüsusilə qidalanma və tənəffüs pozğunluqlarının, xərçəngin, ağciyər və sümük xəstəliklərinin və s. yayılmasında böyük artımlar var.

Təbiətə dəymiş ziyanı geri qaytarmaq çox vaxt mümkün olmur. Görünən odur ki, gələcək nəsillər geridə qoyduğumuz çirklənmənin öhdəsindən gəlmək və pozduğumuz təbii tarazlığı bərpa etmək üçün hətta təmiz su, hava və qida kimi əsas ehtiyaclar üçün də çox əmək sərf edəcəklər.

Məhz buna görə də BMT və digər beynəlxalq institutlar "davamlı inkişaf" konsepsiyasını- resursların optimal istifadəsini gələcək nəsillərin həyatı üçün yeganə təminat kimi təqdim edir. Yəni, biz bu gün bütün resursları vəhşicəsinə xərcləsək, gələcək nəsilləri "quru yurdda" qoyacağıq.

1972-ci il Stokholm Konfransı, 1992-ci il Rio Sammiti, 1997-ci il Rio+5 Sammiti və 2002-ci il Yohannesburq Zirvəsi və sair beynəlxalq konfransların nəticəsi olaraq Dünya Ətraf Mühit və İnkişaf Komissiyasının hazırladığı "Davamlı inkişaf" hesabatında aşağıdakı kimi müəyyən edilmişdir: Biz gələcək nəsillərin ehtiyaclarını ödəmək qabiliyyətini ortadan qaldırmadan yaşamalıyıq.

Konsepsiyanın bu cür müəyyənləşdirilməsi inkişaf prosesində mövcud tendensiyaların uzun müddət davam edə bilməyəcəyini göstərir və eyni zamanda gələcək nəsillərin ehtiyacları ilə indiki nəsillərin tələbatları arasında tarazlığın yaradılmasının zəruriliyini vurğulayır. Bu yanaşma ilə təbii sərvətlərdən səmərəli istifadə etməklə, tullantıların azaldılması və ehtiyatların təkrar istifadəsi ilə gələcək nəsillərin ehtiyacları ödəniləcək və ətraf mühitin davamlı mühafizəsi təmin ediləcək.

Başqa sözlə, davamlı inkişaf strategiyasının ətraf mühit və inkişaf siyasətlərinə uyğun olması üçün o, istehsalın optimallaşdırılmasını, onun keyfiyyətini yüksəltməli, əhalinin əsas ehtiyaclarını dayanıqlı formada ödəməli, texnologiyanı yönləndirməklə riskləri idarə etməli, ətraf mühit və iqtisadiyyatı birləşdirərək inkişafı daha iştirakçı hala gətirməli, beynəlxalq əmək bölgüsünün istiqamətini dəyişdirməlidir.

Buna görə də davamlı inkişaf təkcə ətraf mühitin mühafizəsini prioritetləşdirən inkişaf yanaşmasına aid deyil, həm də inkişafın iqtisadi, sosial və ekoloji baxımdan davamlı olması üçün inkişafla bağlı bütün iqtisadi, maliyyə, ticarət və sənaye siyasətlərinin uyğunlaşdırıldığı bir proses olmalıdır.

Bir anlığa təsəvvür edək ki, bu andan etibarən BMT çərçivəsində dünya miqyasında konsensus əldə edilir və qlobal istehsal prosesinin, ümumiyyətlə hər şeyin əsas həyati prioritetlərə- "davamlı inkişaf" konsepsiyasına uyğun olaraq yenidən qurulması qərara alınır.



Biz artıq bilirik ki, kapitalizm sıfır artımla özünü saxlaya bilməz. Belə bir vəziyyətdə dünyanın gələcək taleyini ona etibar etmək yalnız dəhşətli həddə çatan indiki çürüklüyün qlobal məhvədək davam edəcəyi mənasına gələrdi ki, bu da özlüyündə dəhşətli fəlakətə yol verməkdir.

Brundtland Hesabatına görə, az inkişaf etmiş ölkələrin davamlı inkişaf yolu ilə tərəqqisi mümkün deyil. Dünya torpaqlarının böyük hissəsini təşkil edən ölkələrin inkişaf etməmiş ölkələr olması təbiətin qorunması və ekosistemin yaxşılaşdırılması məsələsini qeyri-müəyyən edir. Hesabata görə, inkişaf etməmiş ölkələrin həm təbiəti qoruması, həm də davamlı inkişaf etməsi mümkün deyil. İqtisadiyyatın davamlılığı ümumi kapitalın və əsas kapitalın ən azı eyni miqdarda saxlanmasından asılıdır. Ona görə də davamlılıq təhlili apararkən ümumi kapitalın hansı elementlərdən ibarət olduğunu bilməliyik.

Ümumi kapital 2 əsas istehsal amilindən ibarətdir: insan əməyi və təbii kapital. Əhəmiyyətli məqam ondan ibarətdir ki, torpaq və su ehtiyatlarının, flora və faunanın, yeraltı təbii sərvətlərin vəhşicəsinə istehlakına və tullantıların istehsalına əsaslanan iqtisadi sistemin təmin etdiyi artım davamlı ola bilməz.

Çünki belə artım təbii resursları tədricən tükəndirəcək və bütün canlılar, o cümlədən insanlar üçün yaşayış imkanı qoymayacaq. Davamlılığı təmin etmək üçün məcmu kapital azalmamalıdır. Lakin davamlılıq inkişafın kəmiyyət ölçüsünə deyil, keyfiyyət ölçüsünə diqqət yetirilməli olduğunu ortaya qoyur. Problem kapitalın genişlənən istehsalı ilə təbiətin özünü yeniləmə prosesləri arasında kəskinləşən ziddiyyətdir. Bu mənada davamlı inkişafın və təbiətin birlikdə mövcud olması mümkün deyil. Çünki bazara əsaslanan hər cür inkişafın təbiətə güclü təzyiqi olacaq və inkişaf adı ilə edilən hər şey gec-tez təbiətdən nəyinsə itirilməsinə səbəb olacaq.

Bütün tarixi boyu humanist heç nə istehsal edə bilməyən, buna baxmayaraq "alternativsiz" kimi göstərilən kapitalizmin təklif edəcəyi həllin hələ də davam edən "azad bazar" sistemi çərçivəsində tapılacağını iddia etmək çox ağırdır. Çünki bəşəriyyəti təbiəti məhv edəcək dərəcədə fəaliyyətə məcbur edən və təkcə bu gün davam edən həyatı yox, həm də gələcək üçün "potensial həyat tərzini" məhv edən kapitalist istehsal üsulu ilə qarşı-qarşıya qalmalıyıq.

Əgər biz barbarlığı və ya yox olmağı seçməsək, onda yalnız 2-ci ehtimala, yəni, yeni ekoloji böhranı xilasımıza çevirmək üçün kapitalizmi kökündən dəf edərək onun yeni sistemlə əvəzlənməsinə nail ola bilərik. Bu "yeni" sistemin nə olduğundan başlasaq; Karl Marks "Kapital"in 3-cü cildində bunu insanın istehsal və istehlakdan uzaqlaşdırılmadığı istehsal yolu ilə "insan və təbiət arasındakı metabolik əlaqəni rasional tənzimləmək" yolu ilə təbiətlə cəmiyyət arasında və cəmiyyət daxilindəki sinfi ziddiyyətlərin tarixi həlli kimi təsvir edir.

Bir sözlə, "yeni"sistem bütövlükdə kapitalizmdə mövcud olan hadisələrin heç birinin (ideoloji, mədəni, sosial və iqtisadi və s.) mövcud olmadığı yeni həyat tərzi, siyasət və sivilizasiya axtarışı olmalıdır. Böhranın həlli üçün bu "yeni" və köhnə yol XX əsrin əvvəllərində obyektiv olaraq bütün bəşəriyyət üçün ümid işığı yaradan, bərabərlikçi, təbiətə və bəşəriyyətə həssas, "kapitalizmi rədd edən" sosialist sisteminin inkişafı ola bilər.

Nüfuzlu iqtisadçı alim, dr. Metin Altıok bu sistemin əsas prinsiplərini belə qruplaşdırır:

1. Bazar əleyhinə planlaşdırmanın həyata keçirilməsi; Planlaşdırma SSRİ və Şərqi Avropada olduğu kimi bir mərkəzdə "mütəxəssislərin" texniki səyi kimi deyil, sosial münasibətlər və ünsiyyət əsasında qurulmalıdır və insanların yalnız əmtəə vasitəsilə dolayı əlaqələr qura bildiyi bazardan fərqli olaraq, insanların əmtəələrin vasitəçiliyi olmadan birbaşa əlaqələr qurduğu bir sistem kimi başa düşülməlidir.

2. Kapitalist texnologiyasına qarşı sosialist planlaşdırma münasibətləri ilə formalaşacaq yeni texnologiya; texnologiya bazar və mənfəət üçün deyil, bəşəriyyətin rifahı və bəşəriyyətin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün istehsal edilməlidir,

3. Təbiətin onlara "təqdim olunan" bir anbar olduğunu düşünən liberal fərddən fərqli olaraq, yalnız təbiətin bir hissəsi kimi mövcud ola biləcəklərini dərk edən konkret fərdlər,

4. Davamlı artım edən iqtisadiyyat əvəzinə sıfır artımı olan optimal iqtisadiyyat (yəni, zəruri tələbata uyğun istehsal həcmi)

5. Patoloji səviyyədə istehlaka qarşı, "istehlak" anlayışına və "istehlak etməmək hüququ"na yad cəmiyyət; "İstehlak" anlayışı müəyyən insan-obyekt münasibətini, insanın öz bədənindən kənarda mövcud olan hər şeyin "onun üçün" olduğunu düşündüyü və buna görə də "onun üçün" olan, lakin bədənindən ayrı olan şeyləri öz bədəninə daxil etmək istəyi ilə dolduğu münasibəti ifadə edir. Bundan başqa, insan-obyekt əlaqəsi insanın obyektlərin "onun üçün" olduğunu deyil, yalnız "olması vacib olduğu" üçün mövcud olduğunu düşündüyü münasibət ola bilər.

6. Böyük əhalinin cəmləşdiyi şəhər yaşayış məntəqələrindən fərqli olaraq, yer üzünə səpələnmiş kiçik yaşayış məntəqələri. Şəhərlər yer səthinin müəyyən nöqtələrində böyük konsentrasiyalar yaratdığından, onlar həm də ekoloji tarazlığı pozan elementlərdir,

7. Bugünkü şəhər həyat tərzi və şəhər mədəniyyətindən fərqli olaraq fərdi psixologiyanı sosial psixologiya ilə əvəz edən yeni həyat tərzi və yeni mədəni şüur; Çünki insanlar arasında istehsal münasibətləri həm də cəmiyyətdə hakim düşüncə strukturunun müəyyənediciləridir. Bu mənada cəmiyyətin üst strukturunu təşkil edən sistemlər iqtisadi infrastrukturun təsiri altındadır. Əsas istehsal üsulu dəyişdikcə, onun müəyyən etdiyi üst quruluş institutları da dəyişir. Və hər bir istehsal üsulu öz ehtiyaclarını ödəmək üçün üst quruluş institutları yaradır,

8. Bəşəriyyətin şüurunda öz yerini tutan döyüşkənliyin, iyerarxik quruluşun məhvi; Bəşər tarixi boyu şüurda nəyinsə formalaşması özbaşına meydana gəlməmişdir. Məsələn, bəşəriyyətin birgə istehsala keçidi həddindən artıq izafi dəyər və talan yaratmaq üçün zəmin yaratdı və kapitalistlər kapitalının toplanması prosesinin genişlənməsində sistemə daxil olan "dağıdıcı rəqabəti", daxili hakimiyyət ehtirası və zorakılığı üzə çıxarmaq fürsətindən istifadə etdi.

Göründüyü kimi, dünya iqtisadi sistemi iflasa uğramışdır və maliyyə böhranları, davamlı inflyasiya, sərvətlərin tükənməsi, istehlakdan artıq istehsal böhranları, ekoloji problemlərin kəskinləşməsi dünyanı xilas yolu düşünməyə vadar edib. Kapitalizm sisteminin doğurduğu faciələrin qarşısını almaq və dünyanı labüd məhvdən xilas etmək üçün bu sistemə tam alternativ olan daha insani və daha təbiətə dost bir sistem yaradılmalı və tətbiq edilməlidir. Əks halda heç bir xilas yolu qalmayacaq.

***Elçin Bayramlı***

SON SƏHİFƏ

# SƏS

30 aprel
2025-ci il

# Bakıda tıxac probleminin sonu olacaqmı?

Mütəxəssis bir sıra vacib məqamlara aydınlıq gətirdi


ulusum.az



"Tıxacların yaranma səbəbləri çoxdur. Məlumdur ki, burada avtomobillərin sayının çoxluğu ilə deyil, yol infrastrukturunun bugünki tələblərə cavab verməməsi də mühüm amillərdən biridir". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov deyib. Digər bir səbəb isə ondan ibarətdir ki, şəhərsalmada olan çoxlu nöqsanlar, irimiqyaslı tədbirlərin şəhərin mərkəzində keçirilməsi bir sıra iri obyektlərin, biznes mərkəzlərinin şəhərin mərkəzində cəmləşməsi də şəhərdə sıxlığa, daha sonra bu sıxlıqlar tıxacların yaranmasına gətirib çıxardır. İlk növbədə bu sıxlığın qarşısını almaq üçün yol hərəkəti iştirakçılarının hərəkətini sabitləşdirmək, onlara şərait yaratmaq, normal qaydada nizam-intizamlı tənzimləyə bilmək üçün ilk növbədə Bakı şəhəri ərazisində və ətraf ərazilərdə tikinti özbaşınalığına son qoymaq lazımdır.

Şəhərsalma və tikinti qaydalarına görə, Bakı şəhəri ərazisində tikilən bütün obyektlərin hamısının istər yaşayış olsun, istərsə də qeyri-yaşayış olsun hamısının parklanma yerləri olmalıdır. Çox təəssüf ki, bu günə qədər də bu problem həll edilməyib. Bir çox obyektlərdə parklanma yerləri mövcud deyil. Olanlar da faktiki olaraq formal xarakter daşıyır, 5-10 maşınlıq parklanma yeri təşkil edirlər. Daha sonra isə o parklanma başqa təyinatı üzrə istifadə olunur. Bundan əlavə olaraq onu da qeyd etmək olar ki, həmin parklanma yerləri daha sonra ləğv olunaraq onun yerində başqa obyekt tikilir. Bununla da parklanma yeri təmin edilmir. Həmin obyektə gələn ziyarətçilər də avtomobillərini çox vaxt məcbur olaraq yol kənarında saxlayırlar. Bununla da artıq həm sıxlıq, həm də tıxaca səbəb olur. İlk növbədə, bu məsələlər həll edilməlidir. Bunlar həll edilmədikcə Bakı şəhərində tıxacların qarşısını almaq mümkün olmayacaq. Avtomobil yollarının da düşünülməmiş şəkildə daraldılması, yol kənarında obyektlərin tikilməsi də tıxacların yaranmasına təsir edir".

*Ziya Hikmətoğlu*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!

*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*



1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Sumqayıtda ərini bıçaqlayan qadın saxlanılıb



Sumqayıtda ərini bıçaqlayan qadın polis əməkdaşları tərəfindən saxlanılıb. SİA-nın əldə etdiyi məlumata görə, ərini bıçaqlamaqda şübhəli bilinən 1987-ci il təvəllüdlü Rəmziyyə İmanova şübhəli şəxs qismində tutulub. Sumqayıt Tibb Mərkəzindən isə "Report"un yerli bürosuna bildirilib ki, 1988-ci il təvəllüdlü şəxs (kişi) aprelin 28-də saat 10:00 radələrində Sumqayıt Tibb Mərkəzinin Təcili Yardım Xəstəxanasına hospitalizasiya olunub. Döş qəfəsinin orta səthinin boşluğa keçməyən kəsilmiş-deşilmiş yarası diaqnozu təyin edilən şəxsə zəruri tibbi yardım göstərilib.

Qeyd edək ki, 1987-ci il təvəllüdlü Rəmziyyə Becan qızı İmanova ailə münaqişəsi zəminində həyat yoldaşı, 1988-ci il təvəllüdlü Vüsal Kərimbala oğlu İmanova bıçaqla xəsarət yetirib. Yaralı dərhal xəstəxanaya çatdırılıb. Faktla bağlı araşdırma aparılır.

# Bir gündə bank kartlarından 12 min manatdan çox pul oğurlanıb...

***Vətəndaşların bank kartlarından oğurluqlar davam edir. Bu barədə Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, kartın üzərindəki CVV/CVC kodu, SMS vasitəsilə göndərilən OTP kodu, digər sizə məxsus sistemlərə giriş üçün lazım olan loqin və şifrələr, kartın PİN kodu məxfi məlumatlardır. Bu məlumatlar naməlum şəxslərə verildiyi halda hesabınızda olan pullar, yaxud pul yoxdursa, kredit formasında Sizə zərər vuracaqlar. Aprelin 28-də ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla 3514, 1500, 1200, 1100, 1000, 930, 786, 743, 640, 393, 240, 200, 83 manat pul vəsaitləri bank kartlarından oğurlanıb.***

"Bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, viza işləri, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edirik. Qəti formada şəxsi bank məlumatlarını naməlum şəxslərə verməyin, təhlükə var", -DİN-dən bildirilib.




*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**